QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 043 (5515) 6 **mart** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan ilə Mərakeş arasında münasibətlər möhkəm əsaslar üzərində inkişaf edir

*Prezident İlham Əliyev Mərakeşin xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Səh 2

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov prezidentliyə namizədlik vəsiqəsini İlham Əliyevə təqdim edib



2

Birinci vitse-prezident Mehriban Əliyeva Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin yeni tədris korpusunun açılışında iştirak edib



3

Dənizkənarı Milli Parkda açıq havada qurulmuş idman meydançasının açılışı olub



6

Əli Həsənov: "Azərbaycan İsraillə müsəlman dünyası arasında körpü yaradır"



6

Amerikalı jurnalist: "Seçkilər müsbət ab-havada keçəcək"



9

Sergey Markov: "Azərbaycanda seçkiöncəsi mühit idealdır"



9

## Türkiyəli ekspert: "Azərbaycan beynəlxalq standartlara uyğun demokratik seçki keçirməyə qadirdir"

Bax 9

*Azərbaycanda sabitlik hökm sürür. Bu, dünyanın hazırki vəziyyəti fonunda ən vacib amillərdəndir. Sabitliyin olması demokratiyanın inkişafına da təsir göstərir. Bu baxımdan, aprelin 11-də Azərbaycanda demokratik ənənələrə uyğun prezident seçkilərinin keçiriləcəyi şübhəsizdir. Bu fikirləri sechki-2018.az saytına açıqlamasında türkiyəli...*

## ATƏT-in müşahidə missiyasının üzvləri Azərbaycana gələcək

Bax 7

*ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) aprelin 11-də keçiriləcək prezident seçkiləri üzrə uzunmüddətli müşahidə missiyasının üzvlərinin bu həftə Azərbaycana səfəri planlaşdırılır. Bu barədə SİA-ya ATƏT DTİHB-nin Mətbuat xidmətindən bildiriblər. Məlumata görə, missiyanın əsas vəzifələrindən biri seçkilərin müşahidəsinin maksimum geniş olmasını təmin etmək üçün plan hazırlamaqdır...*

## Qaçqın və məcburi köçkünlərin problemi dövlətin diqqətindədir

Bax 10

*Azərbaycanda dövlət başçısının düşünülmüş siyasəti nəticəsində, ölkəmizdə sabitlik qorunub-saxlanılır, iqtisadi islahatlar getdikcə dərinləşir, dövlətimizin gücü və beynəlxalq nüfuzu durmadan artır. Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən və praqmatik xarici siyasət strategiyasının qanunauyğun nəticəsi kimi, Azərbaycan beynəlxalq münasibətlər sisteminin nüfuz və güc dairəsində...*

8

Bəhruz Quliyev: "Ölkəmizdə keçirilən seçkilərin nəticələri seçicilərin rəyi əsasında formalaşır"



9

"Prezident seçkiləri Azərbaycanın bütün istiqamətlər üzrə inkişafında yeni keyfiyyət mərhələsi yaradacaq"



16

Formula-1 Azərbaycan Qran-Prisinə hazırlıq işlərinin 70 faizi yekunlaşıb



# Azərbaycan ilə Mərakeş arasında münasibətlər möhkəm əsaslar üzərində inkişaf edir

*Prezident İlham Əliyev Mərakeşin xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev yaşayış məntəqələrinin qazlaşdırılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikası ilə Ukrayna arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Prezidentinin 2006-cı il 26 avqust tarixli 1640 nömrəli sərəncamında dəyişiklik edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlam Əliyev Azərbaycanda arıçılığın inkişafının stimullaşdırılması haqqında Sərəncam imzalayıb.

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Mərakeş Krallığının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Nasser Bouritanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, nazir Nasser Bourita Mərakeşin Kralı Əlahəzrət VI Məhəmmədin dövlətimizin başçısına salamlarını və Azərbaycan Respublikası Prezidentinə və ölkəmizə ən xoş arzularını çatdırdı. Nazir dedi: "Mərakeşin Kralı Əlahəzrət VI Məhəmməd Sizinlə olan çox yaxşı şəxsi münasibətlərini və ölkələrimiz arasında uğurla inkişaf edən əlaqələri yüksək qiymətləndirir". Qonaq qeyd etdi ki, ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının ildönümü ərəfəsində Mərakeş tərəfi, eyni zamanda, Mərakeşin mərhum Kralı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Kasablankada tarixi görüşünün keçirilməsinin 25 illiyinin qeyd edilməsi ilə bağlı tədbirlərə hazırlaşır. Bu tarixi görüşü ölkələrimiz arasında çox yaxşı əlaqələrin qurulmasının əsası kimi dəyərləndirən Nasser Bourita bu gün Prezident İlham Əliyevlə Mərakeş Kralının bu yolu uğurla davam etdirdiklərini vurğuladı. O, öz səfəri zamanı keçiriləcək birgə komissiyanın iclasının ikitərəfli münasibətlərin perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi. Mərakeş Krallığının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri qeyd etdi ki, ölkələrimiz beynəlxalq aləmdə həmrəylik nümayiş etdirir, Mərakeş Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və öz növbəsində, Azərbaycanın da Mərakeşin ərazi bütövlüyünü müdafiə etdiyinə görə minnətdarlığını bildirir. Dünyada islamofobiyanın və radikalizmin gücləndiyini deyən nazir ölkələrimizin beynəlxalq səviyyədə İslam dəyərlərinin qorunması istiqamətində səylərinin gücləndirilməsinin önəmini qeyd etdi. Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin möhkəm əsaslar üzərində uğurla inkişaf etdiyini bildirərək, bu münasibətlərin təməlinin xalqımızın ümummilli lideri Heydər Əliyev və Mərakeşin mərhum Kralı tərəfindən qoyulduğunu vurğuladı. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən BMT və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində həmrəylik göstərdiyini deyən Prezident İlham Əliyev ölkələrimizin ərazi bütövlüyünün qarşılıqlı surətdə dəstəklənməsinin önəmini qeyd etdi. Azərbaycanın İslam həmrəyliyi işinə öz töhfəsini verdiyini qeyd edən dövlətimizin başçısı Azərbaycanda multikulturalizmin və dini tolerantlığın hökm sürdüyünü, ölkəmizin bu istiqamətdə mötəbər beynəlxalq tədbirlərin, o cümlədən İslam Həmrəyliyi Oyunlarının, müxtəlif beynəlxalq sərgi və konfransların keçirildiyi bir məkana çevrildiyini vurğuladı. Bu baxımdan İslam mədəniyyətinin qorunması ilə bağlı Azərbaycanın Avropada keçirdiyi təqdimatların, ISESCO tərəfindən Naxçıvanın bu il, Bakının isə bir neçə il bundan əvvəl İslam mədəniyyəti paytaxtı seçilməsinin önəmini qeyd etdi. Bu gün Azərbaycan dünyada vüsət alan islamofobiyaya qarşı fəal mübarizə aparır və bu baxımdan ölkələrimiz beynəlxalq aləmdə eyni mövqe nümayiş etdirir.

İqtisadi əlaqələrə toxunan dövlətimizin başçısı bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu qeyd etdi, bu baxımdan qarşılıqlı ticarətin artırılmasının, investisiya imkanlarının araşdırılmasının önəmli olduğunu bildirdi.

Prezident İlham Əliyev Mərakeşin Kralı Əlahəzrət VI Məhəmmədin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Mərakeş Kralına çatdırmağı xahiş etdi.

# Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov prezidentliyə namizədlik vəsiqəsini İlham Əliyevə təqdim edib

***Martın 5-də Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov prezidentliyə namizədlik vəsiqəsini İlham Əliyevə təqdim edib.***

***AZƏRTAC xəbər verir ki, Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov 2018-ci il aprelin 11-də Azərbaycanda keçiriləcək prezident seçkiləri ilə bağlı qeydə alınmış ilk namizəd kimi İlham Əliyevə təbriklərini çatdırdı və namizədlik vəsiqəsini ona təqdim etdi.***



Dövlətimizin başçısı qarşıdan gələn prezident seçkilərinin şəffaf, ədalətli, Azərbaycan Respublikasının qanunlarına tam uyğun şəkildə keçiriləcəyinə və bu seçkilərin Azərbaycan xalqının iradəsini əks etdirəcəyinə əminliyini ifadə etdi, Mərkəzi Seçki Komissiyasının işinə uğurlar arzuladı.

Seçkilərə hazırlıq işlərinin lazımi səviyyədə həyata keçirildiyini vurğulayan Məzahir Pənahov seçkilərin Seçki Məcəlləsinin tələblərinə tam uyğun, demokratik və şəffaf şəkildə keçirilməsi üçün bütün şəraitin yaradılması ilə bağlı Azərbaycan Respublikası vətəndaşlarının konstitusion hüquqlarının qarantı kimi Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.



# Birinci vitse-prezident Mehriban Əliyeva Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin yeni tədris korpusunun açılışında iştirak edib

***Martın 5-də Bakının Xəzər rayonunun Mərdəkan qəsəbəsində Dövlət Sərhəd Xidmətinin (DSX) Xüsusi Məktəbinin Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş yeni tədris korpusunun açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva açılış mərasimində iştirak edib. Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya məruzə etdi. Birinci vitse-prezident Mehriban Əliyeva yeni tədris korpusunun açılışını bildirən rəmzi lenti kəsdi.***












Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin yaradılmasında və formalaşdırılmasında Heydər Əliyev Fondunun mühüm dəstəyi var. Dövlət Sərhəd Xidmətinin tabeliyinə verilənədək oğlanlar üçün açıq tipli xüsusi məktəb kimi fəaliyyət göstərən bu tədris ocağı Fondun təşəbbüsü ilə əsaslı təmir edilərək, zəruri tədris bazası ilə təchiz olunub. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2011-ci ildə DSX-nin Xüsusi Məktəbinin açılış mərasimində iştirak edib. Yeni korpusun istifadəyə verilməsi ilə kursantlara daha keyfiyyətli təhsil vermək imkanları artıb. Burada zəngin ədəbiyyat fondu olan kitabxana yaradılıb, dərs otaqları ən yüksək səviyyədə qurulub və kursantların ixtiyarına verilib. Tədris ocağı müasir avadanlıqla təchiz olunub. Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin fəaliyyətə başlaması ilə Azərbaycan Respublikasının sərhəd təhlükəsizliyini təmin edəcək ixtisaslı zabit kadrların hazırlanması üçün 12 illik təhsil dövrünü əhatə edən mükəmməl hərbi tədris sistemi formalaşıb. Xüsusi Məktəb bu sistemin müstəsna əhəmiyyətli ilkin səviyyəsini təşkil edir. Yeni korpus istifadəyə verildikdən sonra burada təhsil alacaq kursantların sayının gələcəkdə 700 nəfərə çatdırılması mümkün olacaq.

Birinci vitse-prezident Mehriban Əliyeva hərbi vətənpərvərlik sinfində I kurs - 5-ci sinifdə təhsil alan kursantlarla görüşdü. Burada təhsil alanlar onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirdilər, Azərbaycana layəqətli vətəndaş və peşəkar zabit kimi xidmət edəcəklərini dedilər. Sonra kursantlar Mehriban Əliyevaya xatirə hədiyyəsi təqdim etdilər.

Birinci vitse-prezident kursantlara dərslərində uğurlar, Vətənə layiqli övlad olmaları və gələcəyin peşəkar zabiti kimi yetişmələrini arzuladı.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü ildə imzaladığı Fərmana əsasən, Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinə xüsusi təyinatlı təhsil müəssisəsi statusu verilib. 2015-ci ildən məzunları DSX-nin Akademiyasında təhsil alan məktəbin Nizamnaməsinə əsasən kursantların maraq və potensial imkanları, fərdi xüsusiyyətləri nəzərə alınmaqla, onların zəruri biliklərə və həyat bacarıqlarına yiyələnmələri, milli mənəvi dəyərlərə malik, sağlam, vətənpərvər, müasir dünyagörüşlü şəxsiyyət kimi formalaşmaları onları Dövlət Sərhəd Xidmətinin Akademiyası üçün hazırlayır.

DSX Xüsusi Məktəbinin yeni korpusunun ümumi sahəsi 11 min kvadratmetrdir. Burada 23 ümumi, 8 ixtisaslaşmış tədris, məntiq, fərdi hazırlıq sinifləri və 400 nəfərlik yataq otaqları yaradılıb. Kursantların idmanla məşğul olmaları üçün hərtərəfli şərait var. Təhsil ocağının su hovuzu müasir səviyyədə qurulub. Təhsil kompleksinin interaktiv atış kabineti də zəruri avadanlıqla təchiz edilib. Burada kursantlar atıcılıq üzrə vərdişlərini zənginləşdirirlər. Kursant yeməkxanasında da şəxsi heyətin qidalanması üçün zəruri şərait yaradılıb. Bütün kompleks üzrə videomüşahidə sistemi tətbiq edilib. Bunun sayəsində də tədris prosesi və kursantların dərsdən sonrakı fəaliyyətləri nəzarətdə saxlanılır. Burada kursantların asudə vaxtlarını faydalı keçirmələri, intellektual və yaradıcı məşğuliyyətləri üçün də geniş imkanlar yaradılıb. Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin ərazisində əsaslı tikinti-abadlıq işləri aparılıb, geniş yaşıllıqlar salınıb, 1000-dən çox ağac əkilib. İnşaat işləri zamanı kompleksdə müasir səviyyədə yeni sıra meydanı yaradılıb. Bundan başqa, kursantların atçılıq hazırlığı ilə məşğul olmaları üçün şərait var. Məktəbin ərazisində peyntbol və digər idman meydançaları da kursantların ixtiyarına verilib. Sonda xatirə şəkli çəkdirildi.

# Şağan Mədəniyyət Mərkəzinin yeni binası istifadəyə verilib

## *Birinci vitse-prezident Mehriban Əliyeva açılış mərasimində iştirak edib*



***Xəzər rayonunun Şağan qəsəbəsində yeni inşa edilən Mədəniyyət Mərkəzinin martın 5-də açılış mərasimi olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva mərasimdə iştirak edib.***

Birinci vitse-prezident Mehriban Əliyeva Mədəniyyət Mərkəzinin yeni binasının rəmzi açılışını bildirən lenti kəsdi. Son illərdə dövlət tərəfindən mədəniyyət sahəsinə göstərilən diqqət və qayğı mövcud mədəniyyət obyektlərinin tamamilə yenidən qurulmasında, həmçinin yeni müasir mədəniyyət ocaqlarının yaradılmasında özünü aydın göstərir. Xəzər rayonunun Şağan qəsəbəsində yeni tikilən Mədəniyyət Mərkəzi də bu istiqamətdə görülən işlərdən biridir.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verdi ki, iki mərtəbədən ibarət Mədəniyyət Mərkəzinin binasının inşasına 2014-cü ildə başlanılıb. Ən yüksək səviyyədə aparılan tikinti işləri nəticəsində Mərkəzdə 200 yerlik tamaşa zalı, kinozal, kinoproyeksiya, qrim otağı, rəssam emalatxanası, musiqi dərnəyi, oxu zalı, kitab fondu, tətbiqi incəsənət, ədəbiyyat, evdarlıq dərnəkləri, rəqs zalı, 41 yerlik amfiteatr, işıq aparatları və səs operator otaqları yaradılıb.





Son illərdə ölkədə mədəniyyətin inkişafı ilə bağlı həyata keçirilən layihələrin bariz nümunəsinə çevrilən bu mədəniyyət ocağının yeni binası, ilk növbədə, zəngin Azərbaycan incəsənətinin, bütövlükdə mədəniyyətinin gənc nəsil arasında təbliği işinə xidmət edir. Digər tərəfdən, bu hadisə mədəniyyətin inkişafının, onun infrastrukturunun yaradılmasının hər zaman dövlətin diqqət mərkəzində olduğunu göstərir. Belə mədəniyyət obyektlərində istənilən tədbiri yüksək səviyyədə təşkil etmək üçün geniş imkanlar var. Bundan başqa, kollektivin, o cümlədən yaradıcı insanların iş şəraitini müasir tələblər səviyyəsinə çatdırmaq baxımından bu cür layihələr mühüm əhəmiyyət kəsb edir. Müasir üslubda inşa edilən bu binalar həm də yerləşdikləri ərazinin gözəlliyini artırır. Bütün bunlar bir daha sübut edir ki, mədəniyyətimizin, incəsənətimizin, musiqimizin tarixi ənənələrini qorumaq və inkişaf etdirmək, gələcək nəsillərə çatdırmaq bu gün



Azərbaycanda həyata keçirilən dövlət siyasətində də əksini tapıb. Mədəniyyət Mərkəzinin ətrafındakı ərazi abadlaşdırılıb, ağaclar əkilib və yaşıllıq salınıb. Yeni Mərkəzlə tanış olan Mehriban Əliyeva kollektivə uğurlar arzuladı.

# Mərdəkandakı "İnci" körpələr evi-uşaq bağçasının binasının əsaslı təmirdən sonra açılışı olub



***Bakının Xəzər rayonunun Mərdəkan qəsəbəsində Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir edilən "İnci" körpələr evi-uşaq bağçasının binası martın 5-də istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva açılışda iştirak edib. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov məlumat verdi ki, "İnci" körpələr evi-uşaq bağçası 1987-ci ildə fəaliyyətə başlayıb. 2011-ci ildə Nazirlər Kabinetinin sərəncamı ilə körpələr evi-uşaq bağçası Dövlət Neft Şirkətinin balansından Bakı Şəhər İcra Hakimiyyətinə verilib. Həmin vaxt məktəbəqədər təhsil müəssisəsi 7 qrup ilə fəaliyyət göstərirdi.***

"İnci" körpələr evi-uşaq bağçasında yaradılan şəraitlə tanış olan Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya məlumat verildi ki, binanın əsaslı təmirinə 2016-cı ilin iyul ayından başlanılıb. Əsaslı təmir işlərindən sonra bağçada fəaliyyət göstərən qrupların sayı 12-yə çatdırılıb. İndi burada 2 yaşdan 6 yaşadək 230 uşağın təlim-tərbiyəsi ilə peşəkar heyət məşğul olacaq. Qruplardan 8-i Azərbaycan, 4-ü isə rus bölmələrinə aiddir. Məktəbəqədər təhsil müəssisəsində dərnək kimi ingilis dili qrupu da fəaliyyət göstərir. Uşaq bağçası zəruri mebel-inventar və avadanlıqla təchiz edilib. Binada videomüşahidə, yanğınxəbərverici sistemlər quraşdırılıb.

Gələcəyimiz olan uşaqların təlim-tərbiyəsinin ən yüksək səviyyədə təşkili, onların sağlamlığının qorunması və vətənpərvər, bilikli, savadlı şəxsiyyət kimi yetişməsi istiqamətində Azərbaycan dövləti çox mühüm layihələr həyata keçirir. Bu istiqamətdə dövlət tərəfindən atılan addımlara Heydər Əliyev Fondu da böyük töhfələr verir. Bu baxımdan Fondun ölkəmizdəki məktəbəqədər tərbiyə müəssisələrinin yenidən qurulması, yeni, müasir uşaq müəssisələrinin inşası sahəsindəki fəaliyyəti xüsusi qeyd edilməlidir.







# Dənizkənarı Milli Parkda açıq havada qurulmuş idman meydançasının açılışı olub

*Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva açılış mərasimində iştirak edib*








***5 mart - Bədən Tərbiyəsi və İdman Günü münasibətilə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Dənizkənarı Milli Parkın yeni bulvar hissəsində açıq havada qurulmuş idman meydançasının rəsmi açılışı olub. AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva açılış mərasimində iştirak edib. Leyla Əliyeva və Milli Olimpiya Komitəsinin baş katibinin müavini Azər Əliyev idman meydançasının rəmzi açılışını bildirən lenti kəsdilər. Sonra Leyla Əliyeva və mərasim iştirakçıları idman meydançasında yaradılan şəraitlə tanış oldular.***

Bu idman meydançası IDEA İctimai Birliyi və CAVAN Gənclər Hərəkatının birgə həyata keçirdiyi "Street Workout" (küçə məşqi) layihəsi çərçivəsində qurulmuş ilk meydançadır. "Street Workout" idman növünün xüsusi standartları nəzərə alınaraq, burada idmançılar və fiziki imkanları məhdud olan şəxslərin rahat məşq edə bilmələri üçün hər cür şərait yaradılıb. Açılış mərasimində Prezident Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, gənclər və idman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Azərbaycanın Olimpiya, dünya və Avropa çempionları, şəhər ictimaiyyətinin nümayəndələri bu təşəbbüsü yüksək qiymətləndirib, bütün idmansevərlər adından Leyla Əliyevaya minnətdarlıqlarını bildiriblər. Layihənin əsas məqsədi sağlam həyat tərzini təşviq etməklə ölkəmizdə həyata keçirilən idman siyasətinə dəstək verməkdən ibarətdir. Ümumiyyətlə, gənclərin mənəvi və fiziki sağlamlığı, eləcə də ətraf mühitin mühafizəsi və davamlı inkişafın təşviqi IDEA İctimai Birliyinin fəaliyyətində prioritet istiqamətlərdəndir.

Paytaxtımızın incisi olan Dənizkənarı Parkda şəhərimizin sakinlərinə və qonaqlarına xidmət edəcək bu idman meydançası dünyada getdikcə populyarlaşan və sürətlə inkişaf edən "Street Workout" idman növünün ölkəmizdə kütləviliyinin artırılmasına mühüm töhfə verəcək.

Gələcəkdə ölkəmizin digər yerlərində də müvafiq idman meydançalarının yaradılması nəzərdə tutulur.

# Əli Həsənov: "Azərbaycan İsraillə müsəlman dünyası arasında körpü yaradır"



İsrail bütün münasibətlərdə Azərbaycanın azsaylı strateji tərəfdaşlarından biridir. Hər iki ölkə hərbi-texniki istiqamətdə, ən yeni texnologiyalar və səhiyyə sahələrində əməkdaşlıq edir. Bunu Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri Əli Həsənov "Aziz" Assosiasiyasının saytına açıqlamasında deyib.

Ə.Həsənov qeyd edib ki, İsrail mütəxəssisləri neçə ildir ki Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində, o cümlədən, ən yeni texnologiya və avadanlıqların tətbiq olunduğu kənd təsərrüfatı, aqrar-sənaye kompleksi, sənaye sektorlarında çalışırlar: "Bizim ölkələrimizi insanlarımız da birləşdirir. İsraildə Azərbaycandan olan böyük icma yaşayır, onlar artıq İsrail cəmiyyətinə yaxşı inteqrasiya olublar və respublikamızı ləyaqətlə təmsil edirlər. Bakıdakı yəhudi icması da həm İsrail, həm də Azərbaycanla müxtəlif, o cümlədən qohumluq əlaqələri ilə bağlıdır, Prezident İlham Əliyev tərəfindən aparılan tolerantlıq siyasəti sayəsində respublikada layiqincə təmsil olunur". Azərbaycan Prezidentinin köməkçisi bildirib ki, iki ölkə arasında siyasi münasibətlər də uğurla inkişaf edir: "Parlamentarilərimiz, həmçinin hökumət üzvləri arasında yaxşı münasibətlər qurulub. Həm hökumət, həm də qeyri-hökumət təşkilatları, ictimai qurumlar və KİV-lərlə yaxşı əlaqələr var. Biz bu qarşılıqlı münasibətlərin səviyyəsindən çox razıyıq".

Ə.Həsənov vurğulayıb ki, Azərbaycan son dövrlərdə İsraillə müsəlman dünyası arasında körpü yaradılması məsələsi ilə məşğuldur: "Azərbaycanın müsəlman dünyasında nüfuzu var və bundan, həmçinin öz əlaqələrimizdən, qarşılıqlı münasibətlərimizdən istifadə edərək biz yəhudi dövləti ilə ərəb dünyası arasında əlaqə qurmağa cəhd edirik. Hesab edirik ki, burada ümumi maraqlar tapmaq olar. Bu ümumi maraqlardan çıxış edərək dostluq münasibətlərinin qurulmasına bütün tərəflərin qəbul etdiyi yanaşmanı da tapmaq olar. Hər halda biz bunu etməyə cəhd göstəririk".

# Şura 2018-ci il birinci qrant müsabiqəsinin nəticələrini təsdiqləyib



Dünən Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının növbəti iclası keçirilib. SİA-nın verdiyi məlumata görə, Şura sədrinin müavini Vüsal Quliyev iclası açaraq gündəliyə təklif olunan Şuranın 2018-ci il birinci qrant müsabiqəsinin nəticələri, "Hasilat Sənayesində Şəffaflıq" prosesində QHT-lərin iştirakı mövzusunda qrant müsabiqəsinin yekunları, Şuranın 2018-ci il fəaliyyət planı, Şuranın 2018-ci il ikinci qrant müsabiqəsinin elan edilməsi haqqında məsələni elan edib. Gündəlik yekdilliklə təsdiq olunub. Şura Katibliyinin icraçı direktoru Fərasət Qurbanov 2018-ci il birinci qrant müsabiqəsi ilə bağlı Şuranın elektron resursuna 651 daxil olmanın qeydə alındığını, onlardan 647 təşkilatın layihə təqdimetmə mərhələsində iştirak etdiyini, 53 təşkilatın texniki şərtlərlə bağlı yol verdiyi qüsurlara görə prosesdın kənarda qaldığını, 594 layihənin isə ekspertizaya göndərildiyini bildirib.

İcraçı direktor ötən ilin 7 dekabrında "Hasilat Sənayesində Şəffaflıq" (HSŞ) prosesində QHT-lərin iştirakı mövzusunda qrant müsabiqəsi elan edildiyini, bununla bağlı Şuraya 24 müraciətin daxil olduğunu deyib. F.Qurbanov 444 təşkilatın 2018-ci il birinci qrant müsabiqəsində, 19 təşkilatın isə HSŞ müsabiqəsində (cəmi 463) tələb olunan ekspert balını topladığını bildirib. Fərasət Qurbanov Şuranın 2018-ci il fəaliyyət planı haqqında da ətraflı məlumat verib. Katibliyin icraçı direktoru Şuranın 2018-ci il ikinci qrant müsabiqəsinin mövzuları, prosedurları, şərt və qaydaları haqqında da geniş məruzə edib. Vüsal Quliyev QHT-lərin ölkənin ictimai həyatında fəal iştirak etdiyini qeyd edərək 2018-ci il birinci qrant müsabiqəsinə müraciət edən QHT-lərin layihələrinin 80%-nin ekspert ballarının müsbət olmasının təqdirəlayiq olduğunu bildirib. O həm yeni yaranan, həm də təcrübəli QHT-lərin cəmiyyət üçün faydalı təşəbbüslərlə çıxış etdiyini vurğulayıb. Şura üzvləri Şahin İsmayılov, Rufiz Qonaqov, Sahib Məmmədov, Emin Həsənli, Əliməmməd Nuriyev, Nərgiz Xələf və Anar Xəlilov çıxış edərək gündəlikdə dayanan məsələlərlə bağlı təkliflərini bildiriblər. Şura 2018-ci il birinci qrant müsabiqəsinin, "Hasilat Sənayesində Şəffaflıq" prosesində QHT-lərin iştirakı mövzusunda qrant müsabiqəsinin nəticələrini və qurumun 2018-ci il fəaliyyət planını təsdiq edib. İclasda həmçinin 2018-ci il ikinci qrant müsabiqəsinin elan edilməsi haqqında da qərar qəbul edilib. Yuxarıda qeyd olunan hər iki qrant müsabiqələrinin nəticələri və 2018-ci il ikinci qrant müsabiqəsinin mövzuları ilə Şuranın internet saytları (www.cssn.gov.az, www.qhtxeber.az və www.e-qht.az) vasitəsi ilə tanış ola bilərsiniz.

# Nasser Bourita: "Mərakeş Azərbaycanın ərazi bütövlüyünü tam dəstəkləyir"




Mərakeş Azərbaycanın ərazi bütövlüyünü tam dəstəkləyir. AZƏRTAC xəbər verir ki, bu fikri Mərakeşin xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Nasser Bourita martın 5-də Bakıda azərbaycanlı həmkarı Elmar Məmmədyarovla birgə mətbuat konfransında söyləyib. Nazir deyib: "Bir çox məsələlərdə oxşarlıqlarımız var. Əlaqələrimiz qarşılıqlı anlaşma əsasında qurulur. Biz Azərbaycanla əməkdaşlığın inkişafında maraqlıyıq. İqtisadi əlaqələrimizin də siyasi sahədə olduğu kimi, sıx olmasını istəyirik. Bunun üçün hüquqi baza yaradılacaq və özəl sektor da cəlb ediləcək".

# Təhsilin inkişafına diqqət insan kapitalının daha da güclənməsinə xidmət edir

*Milli Məclisin deputatı Dilarə Cəbrayılovanın yap.org.az-a müsahibəsi*



***- Dilarə xanım, Azərbaycan dövləti təhsilin inkişafına xüsusi diqqət göstərir. Təhsil sahəsində çalışan şəxs kimi hazırda həyata keçirilən dövlət təhsil siyasətinin əhəmiyyəti haqqında fikirlərinizi bilmək istərdik...***

- Azərbaycanda dövlət təhsilin inkişafına həmişə xüsusi olaraq yanaşır. Məhz bu diqqət və qayğının fonunda təhsilin keyfiyyətinin artırılması, həmçinin bu yöndə müxtəlif dövlət və beynəlxalq əhəmiyyətli layihələrin həyata keçirilməsi birbaşa cəmiyyətimizin elmi səviyyəsinin, təfəkkürünün inkişafına xidmət edir.

Ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində ölkənin imkanları artdıqca, dövlət əldə olunan gəlirləri milli-intellektual potensialı reallaşdırmağa yönəldir. Bunun nəticəsidir ki, Azərbaycanda minlərlə məktəb inşa olunub, təmir edilib, azərbaycanlı gənclər təhsil almaq üçün xarici ölkələrə göndərilib.

Digər tərəfdən, Azərbaycanın sürətli inkişafı, ölkəmizin ictimai həyatının bütün sahələrində əldə etdiyi nailiyyətlər dövlət gənclər siyasətində də özünü bariz şəkildə göstərir. Bir sıra sahələr üzrə gənc kadrların məsul dövlət vəzifələrinə təyin olunması, dövlət quruculuğunda gənclərin iştirakına şərait yaradılması, gənc ailələrə kömək göstərilməsi, qaçqın və məcburi köçkün ailələrindən olan yeniyetmə və gənclərin hüquqlarının qorunması, sosial problemlərinin həlli, gənclərin hərbi vətənpərvərlik tərbiyəsi dövlət gənclər siyasətinin əsasını təşkil edir. Gənclərin yüksək səviyyəli və keyfiyyətli təhsillə təmin olunması, onların bilikli və vətənpərvər vətəndaş kimi yetişdirilməsinə yönəlmiş addımlar da dövlət gənclər siyasətinin mühüm elementlərindən birini təşkil edir. Bir sözlə, təhsilin inkişafına diqqət insan kapitalının daha da güclənməsinə xidmət edir.

***- Azərbaycanda təhsilin inkişafı ilə bağlı Dövlət proqramları həyata keçirilir. Sizcə, bu proqramların üstünlükləri nədən ibarətdir?***

- Təhsilin inkişafı ilə bağlı dövlət başçısının təsdiq etdiyi müvafiq Dövlət proqramları hazırda Azərbaycan hökuməti tərəfindən uğurla icra edilir. Bu proqramlar orta məktəblərdə kurikulum, təhsil sisteminin informasiyalaşdırılması, texniki peşə təhsili, Azərbaycanın ali təhsil sisteminin Avropa təhsil məkanına inteqrasiyasını və s. sahələri əhatə edir. Bu gün məhz Ulu öndər Heydər Əliyevin miras qoyduğu, özündə yüksək norma və dəyərlər sistemini ehtiva edən ənənələr hazırda uğurla davam etdirilir. Dövlət başçısının yüksək diqqəti və effektiv göstərişləri əsasında atılan addımlar, icra edilən Dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişaf meyillərinin əldə edilməsinə, yüksək nəticələrin qazanılmasına xidmət edir. Bu da, şübhəsiz, ölkəmizin milli kadr potensialının kəmiyyət və keyfiyyət baxımından yetişdirilməsi və təkmilləşdirilməsi işinə mühüm töhfələr verir.

***- Ölkəmizdə təhsil infrastrukturu da yenidən qurulur. Sizcə, bu amil təhsilin keyfiyyətinə nə dərəcədə təsir göstərir?***

- Təbii ki, ölkədə təhsilin keyfiyyət göstəricilərinin yaxşılaşmasını şərtləndirən ən mühüm amillərdən biri təhsil şəbəkəsinin müasir infrastrukturla təmin edilməsidir. Hazırda təhsilin maddi-texniki bazasının təkmilləşdirilməsi, müasir standartlara cavab verən yeni məktəblərin tikilməsi xüsusi diqqət mərkəzindədir. Bu mənada son 15 ildə ölkəmizdə təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, respublikanın hər yerində məktəb tikintisinin geniş vüsət alması təqdirəlayiqdir. Güclü müasir infrastrukturun yaradılması təhsil sahəsində uğurların əsasını təşkil edən amillərdən biridir. Ötən dövrdə məktəb tikintisinə dair bir neçə ayrıca Dövlət Proqramı qəbul edilib. Bundan başqa, digər sahələri əhatə edən Dövlət proqramlarında da məktəb tikintisinə böyük diqqət yetirilir. Məsələn, regionların, Bakı şəhərinin və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı ilə bağlı Dövlət proqramlarında məktəb tikintisi ilə bağlı geniş müddəalar öz əksini tapıb.

Eyni zamanda, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda da təhsil müəssisələrinin infrastrukturunun yenilənməsinə geniş yer ayrılıb. Dövlət proqramlarının icrası nəticəsində son 15 ildə Bakı şəhərində və respublikanın bölgələrində 3000-dən çox yeni məktəb tikilib və yaxud əsaslı təmir edilib. Bunun nəticəsində təxminən 1 milyon şagirdin təhsil şəraiti yaxşılaşıb, birnövbəli tədris sisteminin tətbiq edildiyi məktəblərin sayı əhəmiyyətli dərəcədə artıb.

***- Dilarə xanım, siz Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin üzvüsünüz. Ümumiyyətlə, ölkəmizdə bu sahədə olan vəziyyəti necə dəyərləndirirsiniz?***

- Gender bərabərliyinin təmin olunması dünyanın bir çox ölkələrində aktualdır. Qadınlara qarşı zorakılıq, o cümlədən məişət zorakılığı ilə mübarizə qadın və uşaqların hüquqlarının təmin edilməsini prioritet sayan dövlətlərin bu gün həll etməyə çalışdığı əsas problemlərdən biridir. Azərbaycan tarixinə nəzər salsaq görərik ki, cəmiyyətin inkişafının bütün mərhələlərində qadınlar kişilərlə bərabər dövlət quruculuğunda, siyasi qərarların verilməsində fəal iştirak etmişlər. Ölkəmizdə milli qadın siyasəti tariximizin şanlı səhifəsi olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət statusu alıb. Həmin vaxtlarda ilk dəfə olaraq müsəlman Şərqində qadına seçmək və seçilmək hüququ verilib.

Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra isə cəmiyyət həyatının digər sahələrində olduğu kimi, gender siyasətində də böyük dəyişikliklər, irəliləyişlər, tərəqqi əldə edildi. Ulu öndərin fəaliyyəti nəticəsində gender problemlərinin həllinə böyük təkan verildi. Hazırda bu siyasət uğurla davam etdirilir. Bu gün qadınlarımızın bütün sahələrdə kişilərlə bərabər hüquqa malik olması dövlət idarəetmə kursunun prioritet istiqamətinə çevrilib. Beləliklə, Azərbaycanda gender bərabərliyi yüksək səviyyədə təmin edilib.

# ATƏT-in müşahidə missiyasının üzvləri Azərbaycana gələcək

***ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) aprelin 11-də keçiriləcək prezident seçkiləri üzrə uzunmüddətli müşahidə missiyasının üzvlərinin bu həftə Azərbaycana səfəri planlaşdırılır. Bu barədə SİA-ya ATƏT DTİHB-nin Mətbuat xidmətindən bildiriblər. Məlumata görə, missiyanın əsas vəzifələrindən biri seçkilərin müşahidəsinin maksimum geniş olmasını təmin etmək üçün plan hazırlamaqdır.***

Həmçinin yaxın zamanlarda ATƏT DTİHB-nin müşahidə missiyasının rəhbərinin adı açıqlanacaq. Xatırladaq ki, ATƏT DTİHB-nin qiymətləndirmə missiyası bu ilin fevral ayında Azərbaycanda səfərdə olub. Qurum Büroya aprelin 11-də Azərbaycanda keçiriləcək Prezident seçkilərinə müşahidəçi missiya göndərməyi tövsiyə edib.

Onların hazırladığı hesabatda Azərbaycana səsvermə günü seçki prosesini izləmək üçün 280 nəfər (qısamüddətli müşahidəçilər), eləcə də 30 uzunmüddətli müşahidəçi göndərmək tövsiyə edilib.

# Bakıda Azərbaycan-Mərakeş Hökumətlərarası Birgə Komissiyasının ilk iclası keçirilib



***Xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycanda rəsmi səfərdə olan Mərakeşin xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Nasser Bouritanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.***

XİN-in mətbuat xidmətindən bildiriblər ki, görüşdə nazirlər tarixən dini və mədəni köklərlə bağlı olan Azərbaycan ilə Mərakeş arasında siyasi dialoqun və dostluğun inkişafından razılıqlarını ifadə ediblər. Təməli ümummilli lider Heydər Əliyev və Mərakeş Kralı II Həsən tərəfindən qoyulan ikitərəfli dostluq münasibətlərinin Prezident İlham Əliyev və Kral VI Məhəmməd tərəfindən uğurla davam etdirildiyi xüsusilə vurğulanıb.

Ölkəmizdə olmasından məmnunluğunu bildirən Mərakeşin xarici işlər naziri Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul olunduğunu və görüş zamanı çox faydalı müzakirələrin aparıldığını bildirib.

Ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin inkişafı üçün geniş potensialın mövcud olduğu qeyd edilib. Nazirlər səfər çərçivəsində Azərbaycan-Mərakeş Hökumətlərarası Birgə Komissiyasının ilk iclasının keçirilməsinin iki ölkə arasında iqtisadi əlaqələrin inkişafına əsaslı təkan verəcəyinə əminliklərini ifadə ediblər. Tərəflər iqtisadi-ticarət əlaqələrinin təşviq edilməsi üçün iki ölkənin biznes dairələri arasında birbaşa təmasların yaradılmasının vacibliyini vurğulayıb və enerji, kənd-təsərrüfatı, turizm, nəqliyyat və digər qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlıq üçün əlverişli imkanların olduğunu qeyd ediblər. Habelə, iki ölkə arasında mütəmadi olaraq xarici işlər nazirlikləri səviyyəsində siyasi məsləhətləşmələrin və diplomatik akademiyalar arasında tələbə-müəllim mübadiləsinin aparılmasının vacibliyi qeyd olunub.

Azərbaycan ilə Mərakeş arasında mədəni əlaqələrin inkişaf səviyyəsindən razılıq ifadə edən tərəflər hər iki ölkədə keçiriləcək mədəniyyət günlərinin xalqlarımız arasında dostluq əlaqələrinin gücləndirilməsinə və qarşılıqlı turizm axınına töhfə verəcəyinə əminliklərini vurğulayıblar.

Nazirlər beynəlxalq gündəlikdə duran məsələlər ətrafında fikir mübadiləsi aparıb, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunublar. Nazir Elmar Məmmədyarov ölkəmizin "Expo-2025"-ə ev sahibliyi etmək üçün müraciət etdiyini deyib. O, həmçinin həmkarına bu ilin aprelində Bakıda keçiriləcək Qoşulmama Hərəkatının nazirlər toplantısı haqqında məlumat verib. Eyni zamanda, Azərbaycan və Mərakeşin beynəlxalq səviyyədə dinlərarası və mədəniyyətlərarası dialoq prosesinə və qarşılıqlı anlaşmaya yaxından töhfə verdiyi vurğulanıb.

Görüşdə nazir Elmar Məmmədyarov həmsöhbətinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesi, Azərbaycanın haqlı və ədalətli mövqeyi, habelə Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində Azərbaycan xalqına və İslam dininə aid maddi-mədəni və dini irsin talan və məhv edilməsi siyasəti haqqında məlumat verib. Həmçinin nazir E.Məmmədyarov Mərakeş Krallığının Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair yaradılmış İƏT Kontakt Qrupuna daxil olmasına və ölkəmizin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq ədalətli mövqeyini dəstəkləməsinə görə minnətdarlığını bildirib.

Azərbaycan-Mərakeş Hökumətlərarası Birgə Komissiyanın ilk iclası çərçivəsində nazirlər "Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında ikitərəfli əməkdaşlıq üzrə birgə komissiyanın birinci iclasının Protokolu", "Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya", "Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında təhlükəsizlik və cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Dəmir Yolları" QSC ilə Mərakeş Milli Dəmiryolları arasında Niyyət Protokolu" və "Azərbaycan Dövlət Dəniz Akademiyası ilə Dənizçilik Araşdırmaları üzrə Mərakeş Ali İnstitutu arasında Niyyət Protokolu" adlı sazişləri imzalayıblar.

Daha sonra nazirlər birgə mətbuat konfransı keçirdilər.

# Bəhruz Quliyev: "Ölkəmizdə keçirilən seçkilərin nəticələri seçicilərin rəyi əsasında formalaşır "

"Səs" Media Qrupunun rəhbəri, siyasi ekspert Bəhruz Quliyevin sechki-2018.az saytına müsahibəsi



***- Bəhruz müəllim, aprelin 11-də keçiriləcək prezident seçkilərinin işıqlandırılmasında və beynəlxalq ictimaiyyətə çatdırılmasında ölkə mediasının da üzərinə mühüm vəzifələr düşür. Sizcə, Azərbaycan mediası bu prosesə tam hazırdırmı?***

- Azərbaycanda dövlətin diqqət və qayğısı sayəsində kifayət qədər peşəkar, beynəlxalq standartlara cavab verən media mövcuddur. Ölkəmizdə jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi, redaksiyaların maddi-texniki təchizatının yaxşılaşdırılması, media təşkilatlarının müstəqil fəaliyyətinin dəstəklənməsi istiqamətində həyata keçirilən tədbirlər milli mediamızın keyfiyyətcə yeni inkişaf mərhələsinə daxil olmasını şərtləndirib. Birmənalı şəkildə deyə bilərik ki, Azərbaycan mediası regionun ən güclü mediasıdır. Mediamız ölkəmizin həyatında böyük əhəmiyyət kəsb edən tədbirlərin, mühüm hadisələrin işıqlandırılmasında üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir. Biz bunu daha əvvəlki seçkilərdə, həmçinin ilk Avropa Oyunlarının, ordumuzun Aprel zəfərinin, Formula - 1 yarışlarının və digər mühüm tədbirlərin işıqlandırılmasında aydın şəkildə müşahidə etmişik. Eyni zamanda, mediamızın seçki proseslərinin işıqlandırılmasında böyük təcrübəsi var. Media təmsilçiləri aprelin 11-də keçiriləcək prezident seçkilərinin Azərbaycanın demokratik inkişafı baxımından əhəmiyyətini düzgün qiymətləndirir. Ona görə də hesab edirəm ki, mediamız prosesin yüksək səviyyədə işıqlandırılması, dünya ictimaiyyətinə çatdırılması istiqamətində geniş fəaliyyət göstərəcək, xalqımızın bununla bağlı gözləntilərinə layiqincə cavab verəcək.

**- Artıq seçkilərə 40 gündən də az vaxt qalır. Bu günə qədər müşahidə olunanlar Azərbaycan dövlətinin bu seçkilərə yüksək hazırlığını göstərir. Siz, seçkiöncəsi mühiti və müvafiq qurumların prosesə hazırlığını necə dəyərləndirirsiniz?**

- Aprelin 11-də Azərbaycan vətəndaşları növbəti dəfə öz konstitusion hüquqlarından istifadə edərək, ölkəmizin gələcək inkişafı ilə bağlı mühüm qərar verəcəklər. Qeyd etmək lazımdır ki, ölkəmizdə insan hüquqlarının qorunması, vətəndaş cəmiyyətinin inkişafı istiqamətində qanunvericilik bazasının formalaşdırılması Azərbaycanın demokratik inkişafını şərtləndirir. Bu mənada seçkilərin azad və ədalətli, beynəlxalq standartlara uyğun keçirilməsi də mühüm əhəmiyyətə malikdir. Tam əminliklə deyə bilərik ki, ölkəmizdə keçirilən seçkilər və onun nəticələri bilavasitə seçicilərin rəyi əsasında formalaşır. Azərbaycanda sağlam, demokratik tələblərə cavab verən seçki mühiti mövcuddur. Seçki komissiyalarının və müvafiq qurumların da bu sahədə kifayət qədər təcrübələri var. Azərbaycanda "exit-poll"ların təşkili, müşahidəçilik institutunun inkişafı prosesin şəffaflığını təmin edəcək mühüm məqamlardır. Ölkəmizdə hazırda ictimai-siyasi durum sabitdir, inkişaf hədəfləri aydındır və prezident seçkiləri bu hədəflərin reallaşdırılması baxımından böyük önəm daşıyır. Seçicilər öz demokratik hüquqlarından istifadə edərək, aprelin 11-də səsvermə məntəqələrinə gedərək, öz namizədlərinə səs vermək imkanından yararlanacaqlar.

# AVCİYA rəsmisi: "MSK öz işini yüksək səviyyədə həyata keçirir



"Ümumiyyətlə, Azərbaycanda referendum seçkilərindən sonra gözləyirdik ki, prezident seçkiləri növbədənkənar keçirilsin. Bizim strukturlar da buna hazır idi. Ona görə də bizdə elə bir problem olmadı. Amma mənə elə gəlir ki, seçki prosesi ilə ciddi məşğul olan qurumlar kimi heç biri ilə problem olmayacaq". Bunu SİA-ya açıqlamasında Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlı deyib.

Onun sözlərinə görə, aprelin 11-də keçiriləcək növbədənkənar prezident seçkiləri vaxtında elan olundu: "Hətta namizədlərin imzatoplaması, təklifləri üçün də qanunauyğun normal vaxt vardır. Bu mənada hesab edirəm ki, seçki mühiti tam bir demokratik mühitdən xəbər verir. Normal seçkilərin keçirilməsi üçün elə bir ciddi problemlər yoxdur. Mərkəzi Seçki Komissiyasının (MSK) monitorinqini aparırıq. MSK öz işini yüksək səviyyədə həyata keçirir".

M.Zülfüqarlı bəzi beynəlxalq təşkilatların seçkilərə kölgə salmaq işinə də münasibət bildirərək deyib ki, bununla bağlı təşkil olunan seminarlarda dəfələrlə çıxışlar olunub: "Biz seçki prosesi ilə bağlı rayonlarda seminarlar keçiririk. Artıq Azərbaycanın 12 rayonunda seminar keçirmişik. Həmin seminarlarda da deyirəm ki, prezident seçkiləri digər seçkilərdən fərqlənir. Bu seçkilər ciddi siyasi hadisədir. Təbii ki, burada da ciddi siyasi qüvvələr mübarizə aparır. Yəni ən azı namizədin heç olmasa 5 min məntəqədə müşahidəçisi olmalıdır. Eləcə də seçki təşviqatını təşkil etmək üçün xeyli vəsaiti, qüvvəsi lazımdır. Yəni beynəlxalq təcrübədə var ki, seçkidə iştirak edən namizədin üç resursu olmalıdır. Maddi, insan resursu və vaxt resursu. Bəzi qüvvələrin isə seçkidə iştirak etməməsi, seçkiləri boykot etməsi tamamilə qeyri-ciddi yanaşmadır. Yəni boykota gedən təşkilatın ən azı 5 min müşahidəçisi olmalıdır. Bu cür gücü olmayan qüvvələrin bəyanatları ciddi qəbul olunmur".



# Mərkəzi Seçki Komissiyası aşağı seçki komissiyalarının maarifləndirilməsi proqramı çərçivəsində treninqlərə başlayıb

***Aprelin 11-də keçiriləcək Azərbaycan Respublikası Prezidentinin seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyası (MSK) müxtəlif seçki subyektlərinin maarifləndirilməsi məqsədilə ardıcıl və sistemli şəkildə genişmiqyaslı layihələr gerçəkləşdirməkdədir.***

AZƏRTAC xəbər verir ki, martın 5-dən etibarən növbəti layihəyə - aşağı seçki komissiyaları üzvlərinin maarifləndirilməsi proqramı çərçivəsində "Trenerlər üçün treninq"lərə start verilib. Xatırladaq ki, dairə və məntəqə seçki komissiyaları üzvlərinin peşəkarlıq səviyyəsinin artırılması, seçkilər sahəsində onların bilik, bacarıq və işgüzar vərdişlərinin daha da təkmilləşdirilməsinə hədəflənmiş treninq layihəsinin əsası hələ 2002-ci ildə müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlıq şəraitində qoyulub və ilbəil təkmilləşdirilərək 2008-ci ildən sonra daha da genişləndirilib.

Bu il də MSK ikimərhələli treninq proqramı hazırlayıb. Martın 5-dən başlanmış birinci mərhələdə treninqlərin seçki dairələrinin hər birindən 2 nəfərin iştirakı ilə keçirilməsi və martın 6-sı, 7-si və 9-u da daxil olmaqla, 4 gün davam etməsi nəzərdə tutulur. Müxtəlif metodiki və əyani vəsaitlərdən istifadə edilməklə keçirilən "Trenerlər üçün treninq"də iştirakçılara təqdimat bacarıqları, seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə prosesi, səsvermə günü müstəsna hallar, səslərin sayılması və protokolların doldurulması da daxil olmaqla bütün səsvermə günü prosedurları barədə müfəssəl məlumat verilir. Tədbir zamanı, həmçinin MSK-nın Treninq Qrupunun mütəxəssisləri tərəfindən bir sıra aktual məsələlərlə bağlı çoxsaylı praktiki məşğələlər keçirilir, seçki günü müxtəlif səsvermə prosedurları səhnələşdirilir, müzakirələr aparılır və meydana çıxan suallar cavablandırılır.

Treninqlərin ikinci mərhələsi olan aşağı seçki komissiyaları üzvlərinin treninqi isə martın 12-dən başlayaraq seçki dairələri üzrə məntəqə seçki komissiyalarının sayına müvafiq qaydada, təqribən on gün davam edəcək. Aşağı seçki komissiyalarının üzvləri üçün treninqlərin keyfiyyətinin yüksəldilməsi və səmərəliliyinin daha da artırılması məqsədilə MSK-nın Treninq qrupu tərəfindən yerlərdə keçiriləcək treninqlərin cədvəli, eləcə də seçki günü əsas seçki hərəkətləri ilə bağlı slaydlar hazırlanıb və treninqlərin əyani vəsaitlərdən də istifadə edilməklə, kiçik qruplar şəklində - hər treninq sessiyasında 35-40 nəfərədək komissiya üzvünün iştirakı ilə keçirilməsi nəzərdə tutulub. Treninq layihəsinin birinci mərhələsində əhatə olunan mövzularla eyni səpkidə aşağı seçki komissiyalarının üzvləri üçün təşkil ediləcək treninqlərdə də seçki günü prosedurları ilə bağlı tam təfsilatlı məlumat veriləcək.

Aşağı seçki komissiyaları üzvlərinin treninqi zamanı hər bir məntəqə seçki komissiyası üzvünə təqdim edilməsi məqsədilə, həmçinin "Seçki günü üçün Yaddaş" kitabçası, səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər sənəd nümunələri də hazırlanıb. Kifayət qədər irimiqyaslı maarifləndirmə tədbiri olan treninqlərin ümumilikdə 32 mindən artıq komissiya üzvünü əhatə etməsi nəzərdə tutulur.

## Seçkilərin azad və ədalətli keçirilməsi üçün siyasi iradə mövcuddur



Azərbaycanda aprelin 11-də baş tutacaq prezident seçkilərinin azad və ədalətli keçirilməsi üçün siyasi iradə mövcuddur. Sechki-2018.az saytının xəbərinə görə, bu fikirləri Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov deyib. Seçki mühitini yüksək qiymətləndirən A. Xəlilov söyləyib ki, seçki hazırlığı, namizədlərin irəli sürülməsi və digər məsələlərdə heç bir problem yoxdur. "Dövlətin seçkilərə hazırlığında yüksək peşəkarlıq və mütəşəkkilik mövcuddur. Bütün namizədlərə eyni şərait yaradılıb. İddialı şəxslər namizədliklərini sərbəst şəkildə irəli sürüb və imzatoplama kampaniyasına başlayıblar. Hazırki mərhələyədək heç bir problem yaşanmayıb. Bütün bunlar göstərir ki, Azərbaycanda seçki mühiti normaldır və 11 aprel seçkiləri demokratik və şəffaf şəkildə baş tutacaq", - deyə, birlik sədri qeyd edib.

# "Prezident seçkiləri Azərbaycanın bütün istiqamətlər üzrə inkişafında yeni keyfiyyət mərhələsi yaradacaq"

## Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlunun sechki-2018.az saytına müsahibəsi

***- Aprelin 11-də Azərbaycanda prezident seçkiləri keçiriləcək. Seçkilər cəmiyyətdəki sabitlikdən, ictimai-siyasi mühitdən və bütövlükdə yaradılan şəraitdən asılıdı. Siz hazırda ölkəmizdə mövcud olan seçki mühitini necə dəyərləndirirsiniz ?***

- Hər bir demokratik cəmiyyətdə seçki ili ictimai-siyasi mühit üçün fəal dövr kimi səciyyələndirilir. Azərbaycanda da belədir. Artıq Azərbaycan cəmiyyətində özünəməxsus demokratik seçki ənənələri formalaşıb və bu ənənələr hər şeydən əvvəl insan hüquq və azadlıqları, eyni zamanda, seçki hüququna əsaslanır. Ona görə də, hesab edirəm ki, Azərbaycan seçici fəallığı baxımından bir sıra Qərb ölkələrindən daha irəlidədir. Azərbaycanda seçki mühitindən danışdıqda ilk növbədə demokratik seçkilərin keçirilməsini təmin edəcək ictimai-siyasi sabitliyi qeyd etmək lazımdır. İstənilən cəmiyyətdə sabitlik hər şeydən əvvəl hüquqi mexanizmlərin lazımi səviyyədə işləməsini təmin edən vasitə kimi çıxış edir. Bundan sonra siyasi sistemin demokratik institutlarının funksionallığı məsələsidir ki, bu da ölkəmizdə mövcuddur. Burada önə çıxan əsas institut isə ölkənin siyasi sisteminin lokomotivi hesab olunan siyasi partiyaların seçki kampaniyasına qoşulmasıdır. Hazırda Mərkəzi Seçki Komissiyasının seçki təqviminə uyğun olaraq imzatoplama kampaniyası mərhələsindəyik. Bu demokratik yarışa xeyli sayda partiya və digər müxtəlif siyasi təşkilatlanmalar qoşulublar. Seçkini müşahidə etmək üçün çoxsaylı beynəlxalq və regional təşkilatlara dəvətnamələr göndərilib. Bütün bunlar seçkiqabağı demokratik mühitin təmin olunmasının göstəriciləri hesab edilməlidir. Ona görə də seçki mühitini olduqca müsbət qiymətləndirmək olar.



***- Şübhəsiz, Azərbaycan regionun ən güclü dövləti olmaqla yanaşı, bölgənin inkişaf paradiqmalarının müəyyənləşdirilməsində birbaşa iştirak edir. Bu mənada qarşıdan gələn prezident seçkilərinin regionun gələcəyi baxımından əhəmiyyəti nədən ibarətdir?***

- Azərbaycan bütövlükdə Cənubi Qafqaz regionunun aparıcı ölkəsi olmaqla yanaşı, beynəlxalq münasibətlər sisteminin də nüfuzlu aktorlarından biridir. Milli dövlət kimi onun qərarları regional münasibətlərin keyfiyyətini müəyyən edir. Həm iqtisadi, həm hərbi-siyasi, həm də demoqrafik və sosio-mədəni baxımdan üstünlüyü ölkəmizi lider səviyyəsinə qaldırır. Belə olduqda Azərbaycanda keçirilən prezident seçkiləri qonşu dövlətlərin də diqqətini çəkir və bu, olduqca təbiidir. Çünki regionun iqtisadi- siyasi sabitliyi və inkişafı ciddi mənada ölkəmizlə bağlıdır. Həyata keçirdiyi meqa iqtisadi layihələr onun geostrateji əhəmiyyətini daha da artırıb. Bu mənada təkcə region ölkələri deyil, mühüm qlobal iqtisadi layihələrdə tərəfdaşımız olan ölkələr də seçkini maraqla izləyənlər sırasında olacaqlar. Ona görə də ölkəmizdə demokratik seçkilərin keçirilməsi mühüm əhəmiyyətli bir hadisədir və onun məhz demokratik əsaslarda baş tutması üçün heç bir maneə yoxdur.

***- Seçkilər istənilən ölkənin tarixində yeni bir dövrün , inkişaf və islahatlar mərhələsinin başlanğıcı kimi xarakterizə edilir. Siz necə hesab edirsiniz, növbəti prezident seçkiləri Azərbaycanın tarixində hansı rol oynayacaq?***

- Hər seçki yeni başlanğıc olduğu kimi, həm də özünəqədərki mərhələnin davamıdır. Bu mənada demokratik seçkilər, həmçinin cəmiyyətin inkişaf ənənələrinin varisliliyini təmin edən vasitədir. Azərbaycan hazırda ən yeni tarixinin mühüm inkişaf mərhələsini yaşayır. Ölkəmiz müasir mürəkkəb beynəlxalq münasibətlər və geostrateji şərtlərdə öz inkişafını davam etdirməyə nail olur. Üstəlik öz təhlükəsizliyini təmin etmək, ərazi bütövlüyünü bərpa etmək üçün hərbi qüdrətini artırır, güclü ordu yaradır və bu ordu Aprel zəfəri kimi ciddi hərbi uğurlara imza atır. Bütün bunlar həm də ölkəmizin idarəetmə, hüquq və iqtisadi münasibətlər sistemində ciddi islahatlarla müşahidə edilir. Ölkəmizdə işsizliyin, yoxsulluğun aradan qaldırılması istiqamətində çox mühüm addımlar atılır. Qeyri-neft sektorunun inkişafı yeni iqtisadi mərhələnin prioriteti kimi müəyyənləşdirilib. Yeni müasir sənaye mərkəzləri yaradılır, regionlarımız inkişaf edir, olduqca müasir infrastruktur yaradılır. Təhsil, səhiyyə və digər bu kimi mühüm strateji sahələrdə ciddi islahatlar aparılır. Bütün bunlar isə yeni mərhələdə daha dərin və keyfiyyətli islahatlar aparmaq üçün ciddi əsaslar yaradır. Ona görə də 11 aprel tarixində keçiriləcək prezident seçkiləri bütün istiqamətlər üzrə inkişafımızda yeni keyfiyyət mərhələsi yaradacaq.

## Türkiyəli ekspert: "Azərbaycan beynəlxalq standartlara uyğun demokratik seçki keçirməyə qadirdir"



***Azərbaycanda sabitlik hökm sürür. Bu, dünyanın hazırki vəziyyəti fonunda ən vacib amillərdəndir. Sabitliyin olması demokratiyanın inkişafına da təsir göstərir. Bu baxımdan, aprelin 11-də Azərbaycanda demokratik ənənələrə uyğun prezident seçkilərinin keçiriləcəyi şübhəsizdir. Bu fikirləri sechki-2018.az saytına açıqlamasında türkiyəli siyasi ekspert Çağlar Erbek deyib.***

Ç.Erbek qeyd edib ki, Azərbaycan gənc müstəqil dövlət olmasına baxmayaraq, ölkədə demokratik ənənələr ildən-ilə daha da güclənir.

Azərbaycanın seçki təcrübəsini yüksək qiymətləndirən ekspert deyib: "Azərbaycan beynəlxalq standartlara uyğun demokratik seçki keçirməyə qadir olmaqla yanaşı, bu sahədə böyük təcrübəyə malikdir: "Əlbəttə dünyanın heç bir ölkəsi neqativ hallardan sığortalanmayıb. Lakin əsas məsələ bu problemlərin aradan qaldırılması üçün siyasi iradənin göstərilməsidir". Türkiyəli ekspert əlavə edib ki, Azərbaycanda inkişaf edən demokratiya var və bu, seçkilərin yüksək səviyyədə keçirilməsində özünü nümayiş etdirir.

## Sergey Markov: "Azərbaycanda seçkiöncəsi mühit idealdır"



Hazırda həm Azərbaycanda, həm də Rusiyada prezident seçkilərinə hazırlıq prosesi gedir. Prezident seçkilərindən sonra aparılacaq islahatlar ölkələrin inkişafının davam etdirilməsini şərtləndirir. Bu fikirləri sechki-2018.az saytına açıqlamasında Rusiyanın "Siyasi tədqiqatlar İnstitutu"nun baş direktoru, politoloq Sergey Makrov deyib. Azərbaycanda seçkiöncəsi mühitin ideal olduğunu bildirən S.Markov deyib: "Azərbaycanda seçkilərə heç bir müdaxilənin olmaması üçün bütün şərait yaradılıb".

## Amerikalı jurnalist: "Seçkilər müsbət ab-havada keçəcək"



Seçki istənilən demokratik ölkə üçün əhəmiyyətlidir. Bu xalqın öz iradəsinin ifadəsi deməkdir. Bunu sechki-2018.az saytına açıqlamasında amerikalı jurnalist Nurit Greenger bildirib. "News Blaze", "Jerusalem Post" və "Times of İsrael" kimi mətbuat orqanlarının yazarı olan xanım Greenger qeyd edib ki, hər bir seçki yeni bir mərhələnin başlanğıcı kimi də xarakterizə olunur və ölkənin tarixində inkişaf və islahat mərhələsi kimi qəbul edilir. "Azərbaycanda seçkiyə hazırlıq prosesi qanunvericiliyə uyğun şəkildə davam edir. Bu, seçkilərin normal və müsbət ab-havada keçəcəyini deməyə əsas verir. Ümid edirəm ki, prezident seçkilərində Azərbaycan xalqı ən doğru seçimini edəcək",- deyə Nurit Greenger vurğulayıb.

## Əli Hüseynli: "Demokratik seçki keçirmək üçün bütün qanunverici əsaslar mövcuddur"



Azərbaycanın Seçki Məcəlləsi demokratik seçki keçirmək üçün lazım olan bütün qanunverici əsasları özündə ehtiva edir. Bu fikirləri sechki-2018.az saytına açıqlamasında Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli deyib. Komitə sədri bildirib ki, mövcud seçki qanunvericiliyi peşəkar seçki administrasiyasının formalaşmasına şərait yaradıb. "Mərkəzi Seçki Komissiyası, dairə və məntəqə seçki komissiyaları peşəkar əsaslarla fəaliyyət göstərirlər. Bu gün seçkilərin demokratik və azad keçirilməsi üçün seçki administrasiyasının həm də bütün maddi-texniki imkanı mövcuddur".

Seçkilərin şəffaf keçirilməsi üçün qanunvericilikdə nəzərdə tutulan üsullara toxunan Ə.Hüseynli bildirib: "Bura müşahidələrin aparılması, veb-kameraların quraşdırılması, barmaq işarələri və digərləri daxildir. Yəni dünyada mövcud olan bütün müasir nəzarət üsulları qanunvericilikdə öz əksini tapıb. Tədqirdəlayiq haldır ki, bütün bunlar praktikada da tətbiq olunur. İndiyə qədər keçirilən həm prezident, həm də parlament seçkiləri və bu seçkilərin nəticələri deməyə əsas verir ki, Seçki Məcəlləsi azad və şəffaf seçki keçirmək üçün bütün qanunverici əsasları özündə ehtiva edir".

Ə.Hüseynli qeyd edib ki, Seçki Məcəlləsi namizədlərin hüquqlarını da bərabər şəkildə təmin edir: "Prezidentliyə namizədlərin toxunulmazlığı, onların müdafiəsi mexanizmləri qanunvericilikdə öz əksini tapıb. Həmçinin qərarlardan məhkəməyə şikayətlər və həmin şikayətlərə qısa zaman ərzində baxılması və digər bu kimi məsələlər qanunvericiliklə tənzimlənir".

# Qaçqın və məcburi köçkünlərin problemi dövlətin diqqətindədir

***Azərbaycanda dövlət başçısının düşünülmüş siyasəti nəticəsində, ölkəmizdə sabitlik qorunub-saxlanılır, iqtisadi islahatlar getdikcə dərinləşir, dövlətimizin gücü və beynəlxalq nüfuzu durmadan artır. Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən və praqmatik xarici siyasət strategiyasının qanunauyğun nəticəsi kimi, Azərbaycan beynəlxalq münasibətlər sisteminin nüfuz və güc dairəsində sürətlə irəliləməkdədir. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Həqiqətən də, Azərbaycan son 14 ildə bütün sahələr üzrə böyük uğurlara imza atıb.***



Sürətli sosial-iqtisadi inkişafını yaşayan Azərbaycanın əldə etdiyi uğurlar, tərəqqi hər bir vətəndaşın həyatında hiss olunur və insanların rifah halı günü-gündən yaxşılaşır. Əhalinin maddi gəlirlərinin davamlı şəkildə çoxalması, əməkhaqqı və pensiyaların, eləcə də, büdcədən maliyyələşən insanlara ödənilən vəsaitlərin Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, vaxtaşırı artırılması və bu qəbildən olan digər tədbirlər ölkədə sosial sferada vəziyyətin daha da yaxşılaşmasını xarakterizə edən mühüm amillərdir.

Əldə edilən bu uğurlar Ermənistanın həyata keçirdiyi işğalçılıq siyasəti üzündən öz doğma yurd-yuvalarını tərk edərək məcburi köçkün həyatı yaşamağa məcbur olan insanların yaşayışına, sosial vəziyyətinə də təsirsiz ötüşmür. Qaçqın və məcburi köçkünlərin yaşayış səviyyəsinin daha da yaxşılaşdırılması dövlətin həyata keçirdiyi siyasətin əsas prioritetlərindən birini təşkil edir. Cənab İlham Əliyevin Prezident kimi imzaladığı ilk sərəncamlarından biri 2004-cü ildə qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğun artırılması üzrə Dövlət Proqramı ilə bağlı olmuşdur. Dövlət Proqramına uyğun olaraq, qaçqın və məcburi köçkün soydaşlarımızın sosial, təhsil, məşğulluq, yaşayış və tibbi təminatına uyğun olan lazımi tədbirlər mərhələlərlə həyata keçirilir. "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na əsasən, qaçqın və məcburi köçkünlərin həyat və rifah şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atıldı. Məhz bu proqram və orada nəzərdə tutulmuş geniş tədbirlər ölkəmizdəki qaçqın və məcburi köçkünlərə dövlət qayğısının daha bir təzahürü idi. Sözügedən proqram nəticəsində 2004-cü ildən başlayaraq qaçqın və məcburi köçkünlər üçün respublikamızın müxtəlif bölgələrində yeni yaşayış qəsəbələrinin inşası prosesinə start verildi. Doğma torpaqlarından ayrı düşən bu insanların məşğulluq səviyyəsinin yüksəldilməsi üçün də dövlət tərəfindən mühüm tədbirlər həyata keçirilir. Sonradan isə proqrama yeni əlavələr olundu və onun icra müddəti uzadılaraq, daha çox məcburi köçkün ailələrini əhatə etdi.

Azərbaycan dövləti məcburi köçkünlər üçün nəzərdə tutulmuş ərzaq yardımından tutmuş digər məsələlərə qədər əsas problemləri öz iqtisadi gücü hesabına həll edir. Əhalinin həyat səviyyəsinin yüksəldilməsi, əmək haqlarının və aztəminatlı ailələrə verilən müavinətlərin artırılması, vətəndaşların pensiya təminatının yaxşılaşdırılması istiqamətində atılan ciddi addımlar əhalinin sosial müdafiəyə daha çox ehtiyacı olan təbəqəsinin - qaçqın və məcburi köçkünlərimizin sosial problemlərinin həllində də mühüm dönüş yaratmışdır. Hazırda da məcburi köçkünlərin sosial problemlərinin həlli, mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində işlər ardıcıl olaraq davam edir.

Qaçqın və məcburi köçkünlərin Prezident İlham Əliyevin həyata keçirdiyi qətiyyətli siyasətin məntiqi nəticəsi olaraq, tezliklə öz doğma torpaqlarına qayıdacaqlarına, Azərbaycanın ərazi bütövlüyünün bərpa ediləcəyinə inamları daha da artıb. Doğma yurd-yuvalarından didərgin düşmüş insanlar üçün salınan qəsəbələr, tikilən evlər qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşmasına xidmət etsə də, onlar bu ünvanlarda müvəqqəti məskunlaşdıqlarını, tezliklə ata-baba torpaqlarına qayıdacaqlarını yaxşı bilirlər.

Təqdirəlayiq haldır ki, bu gün ölkədəki bütün qaçqın və məcburi köçkünlər dövlətin təminatındadır, onların problemlərinin həlli isə dövlət rəhbərliyinin gündəlik diqqət mərkəzindədir. Məcburi köçkünləri müvəqqəti yaşayış yerləri və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi diqqətin təzahürüdür. Prezident İlham Əliyevin yürütdüyü siyasətin təməl prinsiplərindən olan məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlərin nəticəsidir ki, ölkədə çadır şəhərcikləri ləğv edilmiş, bu insanların hamısı müasir tipli qəsəbələrə köçürülmüşdür. Onların maddi rifahının yaxşılaşdırılması üçün dövlət proqramları qəbul edilmiş, sosial müavinətlərin artırılması istiqamətində mühüm tədbirlər görülmüşdür. Respublikanın bir çox yerlərində salınan bu qəsəbələr bir reallığı da ortaya qoyur ki, Azərbaycan dövləti hər zaman vətəndaşlarının qayğısına qalır, onların problemlərinin həlli dövlət siyasətinin mühüm istiqamətini təşkil edir. Məcburi köçkünlər üçün indiyədək 97 müasir qəsəbə və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb. 265 min nəfər qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Təkcə ötən ilə 12 min köçkün mənzillə təmin olunub, bu il isə 20 min köçkün yeni evlərlə təmin ediləcək. Cənab Prezidentin qeyd etdiyi kimi, evlərlə, mənzillərlə, yaxşı şəraitlə təmin ediləcək köçkünlərin sayı təqribən 290 minə yaxın olacaqdır: "Ancaq bu, minimum proqramdır, əgər il ərzində imkan olarsa, biz bu sayı artıracağıq".

Ötən il Cocuq Mərcanlı kəndinin bərpası təmin edildi. Şıxarx qəsəbəsində 1170 ailəlik böyük şəhərcik tikildi. Cənab Prezidentin vurğuladığı kimi, bu layihələrin xüsusi əhəmiyyəti var: "Çünki bu layihələr vaxtilə işğal edilmiş və Ordumuz tərəfindən işğaldan azad olunmuş torpaqlarda icra edilibdir. Bu layihələrin icrası, eyni zamanda, onu göstərir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək və dağıdılmış bu ərazilərdə yeni şəhərlər, qəsəbələr, kəndlər, məktəblər, yaşayış binaları, bütün infrastruktur tikiləcək. Cocuq Mərcanlının və Şıxarxın timsalında biz dövlətimizin, xalqımızın iradəsini göstəririk. Bir daha göstəririk ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq və Azərbaycan köçkünləri öz doğma torpaqlarına getməyə hazırdırlar".

Heç bir şübhə yoxdur ki, görülən işlər, davamlı səylər nəticəsində, ölkəmizin ərazi bütövlüyü yaxın zamanda bərpa ediləcək. İşğaldan azad olunacaq ərazilərdə Azərbaycan dövlətinin imkanları hesabına həyat tamamilə yenidən qurulacaq, məcburi köçkün olan soydaşlarımız öz ata-baba yurdlarına qayıdaraq, doğma torpaqlarında yaşayacaqlar. Bu zaman onlar yenə dövlətin xüsusi qayğısı ilə əhatə ediləcək və bütün sosial problemləri öz həllini tapacaq. Buna hər kəs inanır və Azərbaycan Prezidenti İlham Əliyevin ətrafında sıx birləşib.

***Nəzakət ƏLƏDDİNQIZI***

## "Ən fəal işəgötürən şirkət" mükafatına "Nar" layiq görüldü



2 mart 2018-ci il tarixdə ADA Universitetində təşkil olunan karyera sərgisində "Nar" operatoru "Ən aktiv işəgötürən şirkət" mükafatına layiq görüldü. Sərgi çərçivəsində mobil operatorun iş imkanları və tələbə proqramları ziyarətçilərin böyük marağına səbəb oldu. Keçirilən karyera sərgisində 105 yerli və xarici şirkət iştirak etdi. "Azerfon" MMC-nin baş icraçı direktoru Qunnar Panke sərgidə aktivliyi ilə seçilən "Nar"-ın bu mükafata layiq görülməsindən məmnunluğunu dilə gətirdi: "Yerli bir şirkət olaraq "Nar" hər zaman azərbaycanlı gənclər üçün iş imkanları yaradır. Biz gənc istedadlardan dünya səviyyəli mütəxəssislər yetişdirməyə çalışırıq, onların parlaq karyera qurmalarına dəstək oluruq. Bu gün ən aktiv işəgötürən olaraq ADA universiteti tərəfindən mükafata layiq görüldüyümüz üçün fərəh hissi keçiririk. "Nar"-a göstərilən marağa görə bütün sərgi iştirakçılarına təşəkkürümü bildirirəm".

Qeyd edək ki, ADA universitetində keçirilən sərgini ümumilikdə 800-dən çox tələbə ziyarət edib. Birbaşa şirkət təmsilçiləri ilə ünsiyyətdə olan tələbələr müxtəlif şirkətlərdə karyera imkanlarını dəyərləndirmək, həmçinin bu şirkətlərin təcrübə proqramlarında iştirak barədə məlumat əldə etmək imkanı qazanıblar.

"Azerfon" MMC ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilmişdir. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim etmiş və geniş 4G şəbəkəsini istifadəyə vermişdir. Mobil operator səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim etmişdir. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

## Vidadi İsgəndərlinin atasının qəbrinin təhqir olunması xəbəri yalan və təxribatdır



Sosial şəbəkələrdə yayılmış xəbərlərdə hazırda Avropada yaşayan hüquqşünas Vidadi İsgəndərlinin atasının məzarının təhqir olunduğu iddia edilib. SİA-nın verdiyi məlumata görə, xəbərdə bildirilir ki, rayonda bir qrup şəxs onun atasının məzarını insanlığa sığmayan iyrənc bir şəkildə təhqir edib və prosesi çəkərək internetə yerləşdirib. Videogörüntüdə onun ünvanına söyüş və təhqir dolu ifadələr işlədilir, bunun V.İsgəndərlinin tənqidlərinə cavab olduğu deyilir.

V.İsgəndərlinin qohumları isə yayılmış xəbərlərin yalan və təxribat olduğu barədə açıqlama yayıblar. Mərhumun Göyçay rayonunun Məlikkənd kəndində yaşayan yaxın qohumlarının yaydığı açıqlamada qeyd olunub ki, sosial şəbəkələrdə bu barədə xəbərlərlə tanış olduqdan dərhal sonra kəndin qəbiristanlığına gedib, 1991-ci ildə dəfn olunmuş İsgəndər Qasım oğlu İsgəndərovun və digər qohumlarının məzarlarını yoxlayıblar. Yoxlama nəticəsində məzarlara qarşı heç bir vandalizm halı aşkarlanmayıb. Onlar yayılan xəbərləri təxribat kimi qiymətləndirərək həm bu təxribatın təşkilatçılarını, həm də bundan öz məqsədləri üçün istifadə edənləri belə qeyri-insani addımlardan çəkinməyə çağırıblar.

## "YARAT"da gənc ifaçı konsert proqramı ilə çıxış edəcək

Martın 9-da "YARAT" Müasir İncəsənət Mərkəzində gənc ifaçı Ləman Dadaşova konsert proqramı ilə çıxış edəcək. "YARAT"dan AZƏRTAC-a bildirilib ki, konsert zamanı klassik mahnıların, həmçinin caz və pop üslubunda məşhur xarici mahnıların kaver versiyaları ifa olunacaq. Qeyd edək ki, caz, pop, caz-rok, rok və klassika daxil olmaqla, ən müxtəlif musiqi janrlarında mahnılar ifa edən, çox nadir kontralto səs tembrinə malik gənc müğənni 2016-cı ildə "Səs" (Azərbaycan) televiziya layihəsinin yarımfinalçısıdır.



# Ölkəmizdə davamlı inkişaf təmin edilib

*Dövlət başçısının Sərəncamı ilə Sabirabad rayonunun Sarxanbəyli, Moranlı, Bala Həşimxanlı, Əlilənbəyli kəndlərinin əkin sahələrinin su təminatının yaxşılaşdırılması məqsədi ilə dövlət büdcəsindən 22 milyon 358 min manat ayrılıb*

***Bu gün Azərbaycan inkişaf və tərəqqi dövrünü yaşayır. Həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Xüsusilə, regionların sosial-iqtisadi inkişafı ilə bağlı mərhələli dövlət proqramlarının qəbul və icra olunması hər bir bölgənin davamlı inkişafını təmin edib.***

Təbii ki, bu uğurlar ölkəmizdə hökm sürən sabitliyin və əmin-amanlığın mövcudluğunu təsdiqləyir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, sabitlik olmayan yerlərə investisiyalar qoyulmur, inkişaf olmur və vəziyyət mənfi istiqamətdə inkişaf edir: “Bu, həqiqətdir və yaxın tarixin nəticələri və bölgəmizdə yaşanan böhranlı vəziyyət bunu təsdiqləyir. Azərbaycan isə təhlükəsizlik, əmin-amanlıq, sabitlik şəraitində öz yolu ilə uğurla gedir. Bu gün inkişaf parametrlərinə və vətəndaş həmrəyliyinə görə Azərbaycan dünyada nümunəvi ölkələrdən biridir”. Son 14 ilin reallıqları bir daha göstərir ki, ölkəmizdə icra olunan islahatlar və həyata keçirilən dövlət proqramları bütün sahələrdə uğurların əldə olunması ilə nəticələnib. “Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, siyasətimizin təməlində Azərbaycan vətəndaşının maraqları dayanır. Eyni zamanda, bizim əsas strateji məqsədimiz, hədəfimiz ölkəmizi daha da gücləndirməkdir, Azərbaycan dövlətinin qüdrətini artırmaqdır, müstəqilliyimizi möhkəmləndirməkdir”- deyən Cənab Prezident, son 14 il ərzində, regional inkişaf proqramlarının icrasının nəticələrinin gözə qabağında olduğunu bildirib. Bütün mövcud iqtisadi problemləri, insanları narahat edən sosial məsələləri əhatə edən dövlət proqramları ölkəmizin dinamik inkişafını təmin etməklə yanaşı, bölgələrin potensialının artmasına və əhalinin rifahının yüksəlməsinə geniş şərait yaradıb.



Ölkəmizdə, bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatının inkişafında da böyük irəliləyişlərə nail olunmuşdur. Dövlət başçısının ölkəmizdə kənd təsərrüfatının strateji sahələrinin inkişaf etdirilməsi ilə bağlı verdiyi qərarlar və tapşırıqlar əsasında aqrar sahədə böyük canlanma yaranıb. Respublikada pambıqçılıq, taxılçılıq, tütünçülük və digər kənd təsərrüfatı bitkilərinin və heyvandarlıq məhsullarının istehsalına xüsusi diqqət ayrılıb. Bu diqqət ciddi irəliləyişlərə səbəb olub. Belə ki, əgər 2015-ci ildə 236 kiloqram barama tədarük olunmuşdusa, 2017-ci ildə bu rəqəm 244 tona çatıb. 2016-cı ildə 3 min 500 ton, 2017-ci ildə isə 5 min 200 ton quru tütün tədarük edilibdir. Bu və ya digər statistik göstəricilər kənd təsərrüfatı sahəsində irəliləyişlərin olduğunu göstərir. Ölkəmizdə kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafı təmin edilib, pambıqçılıq, taxılçılıq və digər kənd təsərrüfatı bitkilərinin və heyvandarlıq məhsullarının istehsalında böyük artıma nail olmaq məqsədilə əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına da diqqət ayrılıb. Belə ki, yeni suvarılacaq torpaqların istifadəyə verilməsi üçün mühüm tədbirlər həyata keçirilib, su anbarları, nasos stansiyaları, magistral kanallar və digər su təsərrüfatı obyektləri tikilib istifadəyə verilib. Onu da qeyd edək ki, son 14 il ərzində dörd su anbarı - Taxtakörpü, Şəmkirçay, Göytəpə və Tovuzçay su anbarları tikilərək istifadəyə verilib. Cənab Prezidentin vurğuladığı kimi, onların arasında Taxtakörpü və Şəmkirçay su anbarları böyüklüyünə və kənd təsərrüfatına təsirinə görə xüsusi yer tutur: “Bu, nəhəng tarixi infrastruktur layihələridir. Bu anbarlar, çəkilmiş və çəkilən kanallar on minlərlə hektar əkin sahəsini suvarmaq üçün həlledici rol oynayır. Meliorativ tədbirlər kənd təsərrüfatının inkişafına, bilavasitə təsir edən infrastruktur layihələridir. Bu sahəyə qoyulan böyük vəsait, eyni zamanda, sahibkarlığa dövlət tərəfindən göstərilən növbəti dəstəyin təzahürüdür. Bu su anbarlarının kənd təsərrüfatının inkişafına çox müsbət təsiri olacaqdır və biz artıq bunu görürük. Biz hazırda yeni layihələr üzərində işləyirik”.

Görülmüş tədbirlərin davamı olaraq, Sabirabad rayonunun Sarxanbəyli, Moranlı, Bala Həşimxanlı, Əlilənbəyli kəndlərinin əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün Kür çayında nasos stansiyasının və “H” kanalının yenidən qurulması nəticəsində, 2017-ci ildə 4147 hektar əkin sahəsi suvarma suyu ilə təmin edilmişdir. Bu istiqamətdə işlərin davam etdirilməsinin vacibliyini nəzərə alaraq, Azərbaycan Prezidenti Cənab İlham Əliyev Sabiradad rayonunun Sarxanbəyli, Moranlı, Bala Həşimxanlı və Əlilənbəyli kəndlərinin əkin sahələrinin su təminatının yaxşılaşdırılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Sabirabad rayonunun Sarxanbəyli, Moranlı, Bala Həşimxanlı, Əlilənbəyli kəndlərinin əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün “H” kanalının yenidən qurulması layihəsi çərçivəsində tikinti işlərinin başa çatdırılması və daha 7551 hektar əkin sahəsinin suvarma suyu ilə təmin edilməsi məqsədilə dövlət büdcəsindən 22 358 000 (iyirmi iki milyon üç yüz əlli səkkiz min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılıb.

Göründüyü kimi, Azərbaycan vətəndaşının bu gününə, sabahkı rifahına, xoş gələcəyinə yönəldilmiş islahatlar və dövlət proqramları uğurla icra olunur və bunun nəticələrini hər bir ölkə vətəndaşı həyatında hiss edir.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Azərbaycanda ikinci çərşənbə - Od çərşənbəsi qeyd olunur




Xalqın tarixi ilə aparılan tədqiqatlar zamanı aydın olub ki, qədim köklərə malik Azərbaycan əsrlər boyu öz maddi və mənəvi xəzinəsini qoruyub-saxlaya bilib. Bu zəngin irsdə xalqın soykökünə bağlı olan adət-ənənələr yaşayaraq bizim əsrə, yeni bugünkü yüzilliyə qədər gəlib çatmışdır. Hər il müsəlman dünyasının böyük həvəslə qarşıladığı və yola saldığı Novruz bayramı xalqın tarixi kökünü və adət-ənənələrini özündə yaşadan gündür. Bu bayramın qeyd olunmasına qədər, bildiyimiz kimi, dünyanın və insanın yaranması ilə bağlı müqəddəsləşdirilmiş Su, Od, Yel və Torpaq çərşənbələri qeyd olunur. Çərşənbələr Novruz bayramının əvəzolunmaz atributlarındandır. Bu dörd çərşənbənin qeyd olunmasının arxasında böyük həqiqətlər dayanır. Folklorşünas alimlərin fikrincə, bu çərşənbələr insanın həyata gəlişi və həyatın canlanması ilə əlaqədardır. Hər çərşənbə təbiətin bir ünsürü ilə əlaqələndirilir.

Bu gün xalqımız boz ayda ikinci çərşənbəni - Od çərşənbəsini qeyd edir. Bu çərşənbə qədim insanların Günəşə, oda olan inamından irəli gəlir. Adət-ənənəyə görə, bu gün tonqal qalayıb, alovun üzərindən tullanmaqla daxildə olan bütün çirkabı və azar-bezarları yandırırlar. Günəş insanlara sevinc gətirdiyi kimi, od da sonsuz fərəh və nikbinlik gətirir. Od - yaşamaq, yaratmaq rəmzidir.

Od çərşənbəsinə bəzən “Üzgü çərşənbə”, “Üzgü axşamı” da deyirlər. İnanclara görə, odu günəşlə, işıqla və gündüzlə əlaqələndirirlər. Bu çərşənbədə oda sitayiş edilir və onun şərəfinə şənliklər təşkil olunur. Günəş istisini arzulayan ulu babalarımız böyük bir tonqal qalayıb günəşin çıxmasını gözləyər, odun şərəfinə nəğmələr söyləyərdilər. Atəşpərəst etiqadlarına görə, “müqəddəs od”u insana ağac vermişdi. Ulu babalarımız bunun şərəfinə şənliklər keçirərdilər. İnsan bədənində və təbiətin özündə qorunub-saxlanan istilik də müqəddəs hesab olunurdu. Elə bu istiliyi qoruyub-saxlamaq şərəfinə şənliklər yaranmışdı. Od ilə istinin əsas mənbəyi isə Günəş hesab olunurdu. Onu çağıran Qodu nəğmələri xalq arasında geniş yayılar, günəşin istiliyi şərəfinə Azərkan şənlikləri düzənlənirdi.

İndi şər qarışanda hər həyətdə, yaxud məhəllədə tonqallar yandırılır və tonqal başına toplananların hamısı növbə ilə 3 dəfə alovun üstündən tullanırlar. Odla bağlı xeyli atalar sözü yaranıb: “Od imandır”, “Od düşdüyü yeri yandırar” və s. İnanclara görə, ocağa yaxınlaşanda salam verərlər, od hisli olarsa, uzaqdan qonaq gələcəyinə işarədir. Əgər ocaq yananda səslənirsə, deməli, kimsə səndən danışır. Od çərşənbəsi günü, gün doğanda dünyaya gələn uşaq göyçək və pəhləvan olar. Oda sevgi və inam insanlarda o qədər güclü olub ki, hələ qədim dövrlərdən ona and içiblər. Alqış və qarğışlarda belə, odu köməyə çağırıblar. Məsələn, “Od haqqı”, “Oda düşəsən,” “Ocağın odlu olsun”, “Ocağın qazan görməsin” və s.

Ümumiyyətlə, bütün çərşənbələrdə od aparıcı motivdir. Bu, od amilinin Novruzun mahiyyətində durmasına ən gözəl sübutdur.

Od çərşənbəniz MÜBARƏK!

***Z.BAYRAMOVA***

## Pirallahıda “700 min ağac əkək” kampaniyası uğurla davam edir



Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatı partiyanın yaranmasının 25 illik yubileyi münasibəti ilə “700 min ağac əkək” kampaniyası çərçivəsində yeni salınacaq parkda 400-dən çox zeytun və şam ağacları əkib. Aksiyada YAP Pirallahı rayon təşkilatının fəalları, ərazi ilk partiya təşkilatı sədrləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Bu kampaniyada təbiətin və ekoloji mühitin mühafizəsi, biomüxtəlifliyin qorunması istiqamətində çoxsaylı tədbirlər və layihələr həyata keçirilir. Gələcəkdə də bu cür aksiyaların davam etdirilməsi nəzərdə tutulub.

***Rövşən NURƏDDİNOĞLU***

## Siyəzəndə növbəti ağacəkmə aksiyası keçirilib



Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi ilə əlaqədar “700 min ağac əkək” kampaniyası çərçivəsində YAP Siyəzən rayon təşkilatı tərəfindən ağacəkmə aksiyası uğurla davam etdirilir. Kampaniyada təbiətin və ekoloji mühitin mühafizəsi, biomüxtəlifliyin qorunması istiqamətində çoxsaylı tədbirlər və layihələr həyata keçirilir.

Aksiyada YAP Siyəzən rayon təşkilatının fəalları, ilk ərazi partiya təşkilatı sədrləri və YAP üzvləri iştirak edib. Aksiya çərçivəsində 1100 ağac əkilib.

Gələcəkdə də bu cür aksiyaların davam etdirilməsi nəzərdə tutulur.

***ZÜMRÜD***

# Müxalifət mitinq şousuna start verərsə, meydanda tək qalacaq



***Azərbaycan müxalifətinin radikal qanadı 1993-cü ildən sonra xalq arasında nüfuzunu tədricən itirməyə başlayıb və hazırda itirəcək nə nüfuzu qalıb, nə də başqa bir məqamı. Çünki qeyri-konstruktiv, zamanla uzlaşmayan mövqeləri ilə diqqət çəkən, hər dəfə seçkiöncəsi ətraflarındakı insanlara "yağlı vədlər" verməklə, onları aldadan siyasi partiya "liderləri" sıravi partiya üzvlərindən yalnız öz şəxsi məqsədləri naminə istifadə ediblər. Hər dəfə seçkidə biabırçı şəkildə məğlub olan radikallar olmayan etimadlarını, sosial bazalarını da itiriblər və bu səbəbdən də, artıq həmin partiyalar Azərbaycan ictimai-siyasi həyatındakı hər hansı hadisəyə və ictimai rəyə təsir edə bilmək gücündə deyillər. Bu mənada, radikalların, həqiqətən, itirəcək bir məqamı qalmayıb və bu səbəbdən, ağıllarına nə gəlirsə, onun dalınca getməkdən çəkinmirlər.***

Zaman keçdikcə, unudularaq, tarixin arxivinə gömülən radikallar yalnız seçkidən-seçkiyə "fəallıq" nümayiş etdirməklə, xarici ölkələrdən dəstək dilənməklə gündəmə gəlməyə, var olduqlarını sübut etməyə çalışırlar. İnsafən, "əcnəbi ağalar" da öz "səxavətlərini" radikallardan əsirgəmirlər. Radikalların şousu müqabilində, Azərbaycan əleyhinə fəaliyyəti qarşılığında, onlara pay ayırırlar. Amma uğursuzlar bu payı parçaladıqdan sonra, hər dəfə olduğu kimi, rüsvayçı məğlubiyyətə imza atır və başlayırlar deyinməyə və didişməyə. Seçki başa çatandan sonra partiya sədrləri və qurum rəhbərləri öz məğlubiyyətlərini ört-basdır etmək üçün min bir dona girir, bir-birlərinin ünvanına əxlaq və tərbiyədən uzaq küçə söyüşləri yağdırmaqdan belə çəkinmirlər.

## Ağıllarına gələn ilk söz boykot, ilk niyyət aksiya keçirmək olub

Seçkilərdən sonra qış yuxusuna qərq olan dağıdıcı müxalifət, həmçinin, onların ətrafına toplaşan əqidədaşları gözlərini bir də seçkiqabağı açıblar. Baxıb görüblər ki, ölkədə prezident seçkisi keçiriləcək. Ona görə də, dərhal "varlıqlarını" sübut etməyə çalışırlar. Bunun üçün ağıllarına gələn ilk söz boykot, ilk niyyət aksiya keçirmək olub. Bunun bir səbəbi Əli Kərimlinin, eləcə də, Arif Hacılının ata-ana müxalifət, yaxud müxalifət lideri olduğunu sübut etmək mərəzidirsə, digər mühüm səbəb ölkə daxili sabitliyi və ictimai asayişi pozmaq üçün onlara vəd edilən məbləği əldə etmək istəyidir. Belə vəziyyət, bir daha onu sübut edir ki, Azərbaycan müxalifəti - radikal müxalifət liderləri yalnız öz ambisiyaları, şəxsi maraqları uğrunda mübarizə aparmaqdadırlar. Onlar üçün vətən, millət və xalq anlayışı tamamilə yaddır. Radikal müxalifət indi elə bir ələbaxım quruma çevrilib ki, pul müqabilində kiminlə olsa əməkdaşlıq etməyə, sifarişə uyğun olaraq, istənilən havanı oynamağa hazırdır. Necə ki, 2013-cü ilin prezident seçkiləri öncəsi bunlar Rusiyadakı "Milyarderlər İttifaqı"nın ayırdığı pul müqabilində kinodramaturq Rüstəm İbrahimbəyovun bayrağı altında birləşməyi qəbul edirdilər, indi də kimin olsa havasına oynamaqdan da çəkinməzlər.

Yenə də öz ənənələrinə sadiq qalaraq, radikallar mitinq həvəsinə düşüblər və martın 10-da mitinq keçirilmək iddiasındadırlar. Bu dəfə AXCP, onun idarəçiliyi altında olan "Milli Şura" və Müsavat partiyasının birgə mitinq keçirəcəyi planlaşdırılır. Hər dəfə mitinqdən öncə, keçirəcəkləri aksiyaya bənzər xırda toplaşmanı möhtəşəm izdiham kimi təqdim etməyə çalışanlar bu dəfə də, eyni əhval-ruhiyyəyə kökləniblər və güya ki, budəfəki mitinq daha böyük olacaq. Güya ki, Müsavatın iştirakı ilə mitinq əvvəlkindən daha böyük həcmdə olacaq. Halbuki müxalifət düşərgəsində təmsil olunan ADP sədri Sərdar Cəlaloğlu da onların mitinqlərini ələ salır və hətta qeyd edir ki, tək özü onların birlikdə keçirəcəyi mitinqdən daha geniş mitinq keçirə bilər. S.Cəlaloğlu, "mənim "Milli Şura" kimi 50 təşkilatın dəstəyinə ehtiyacım yoxdur" deməklə, əslində, Kərimli və onun tabeçiliyində olan "şura"nın mitinqinin kimlərinsə dəstəyi ilə ərsəyə gəldiyini vurğulayır. Yəni Kərimlinin daim dəstəyə ehtiyac duyduğunu, bu dəstəyə əl açdığını və köməksiz və dəstəksiz heç nəyə qadir olmadığını gizlətmir.

ADP sədri AXCP və Müsavatın seçki ilə bağlı aqressiyasına da kəskin mövqe nümayiş etdirərək, bildirib ki, boykot etmək qərarı yanlış addımdır. Cəlaloğlu seçkiqabağı oyunbazlıq edənlərə, şou göstərənlərə iradını bildirərək, seçkinin demokratik proses, konstitusion norma olduğunu və heç kimin bu normaya qarşı çıxış edə bilməyəcəyini onlara xatırladır. Həmçinin, qeyd edir ki, konstitusiyanın 70-ci maddəsinə görə hansısa ad altında vətəndaşların hüquqlarının məhdudlaşdırılması yolverilməzdir və buna görə də, siyasi baxımdan, vətəndaşları seçkilərdən yayındırmağa çalışmaq, dövlətin və cəmiyyətin həyatında iştirakdan çəkindirməyə cəhd konstitusion normanın pozulmasıdır.

## Aksiyalarına adam yığmaq üçün az qalırlar yalvarsınlar

Təbii ki, müxalifət düşərgəsində təmsil olunan partiya sədrinin öz məsləkdaşlarına belə bir tövsiyə ilə müraciət etməsi özü də, ondan xəbər verir ki, radikallar da yaxşı başa düşürlər ki, əməlləri qanunsuz, fəaliyyətləri yolverilməzdir. Bu yolverilməzliyin fonunda təşkil etməyi planlaşdırdıqları aksiyaya kimlərinsə toplaşacağına, görəsən, özləri inanırlarmı? Yəqin ki, elə bu inamsızlıq səbəbindən də, aksiyalarına adam yığmaq üçün az qalırlar yalvarsınlar. Sözsüz ki, ilk mərhələdə bu yalvarışla müşayiət oluna bilər. Amma müxalifətin mitinq təcrübəsi, onu deməyə əsas verir ki, tezliklə bu yalvarışlar qeyri-etik çağırışlarla, təhqir və hətta söyüşlə də əvəzlənəcək. Belə qeyri-etik çağırış müxalifətin dəyişməz ənənəsidir.

Nəzərdə tutulmuş bu aksiya keçirilərsə, əvvəlki mitinqlərdən heç də fərqlənəcəyinə Kərimlinin özünün də inamı yoxdur. Bu aksiyada əvvəlkilərdən fərqli olaraq, yalnız Müsavatın iştirakı gözlənilir. Nə "REAL" qatılmır, nə Klassik Xalq Cəbhəsi qatılmır, nə də digərləri qatılmır bu aksiya niyyətinə. Deməli, aksiyaya bənzər mitinq keçirilərsə, Kərimlinin budəfəki rüsvayçılığı da təkzib edilə bilməz. Amma budəfəki rüsvayçılığın əvvəlkilərdən daha böyük rezonans doğuracağı göz qabağındadır. Seçkiləri boykot edən kəsimin niyyəti meydana kifayət qədər böyük bir güc çıxara bilməyəcəkləri təqdirdə, cəmiyyətdə azlıq təşkil etdiklərini nümayiş etdirməkdən başqa heç bir nəticə verməz. Bu da, onların yalnız əleyhinə işləyə bilər. Etiraz aksiyasına 100 minlərlə insan cəlb edə bilməyənlər özlərini böyük qınaq altında qoymaqla, yox dərəcəsində olan nüfuzun tamamilə heç olmasına şərait yarada bilərlər. Əslində, "yarada bilərlər" yox, əgər belə bir aksiya keçirmək qərarına gəliblərsə, bu acınacaqlı sonluqla indidən barışmaq məcburiyyətindədirlər. Bu acınacaqlı sonluq günün reallığıdır və bunu təkzib etmək olmaz.

Əminliklə demək olar ki, müxalifət mitinq şousuna start verərsə, bu dəfə də meydanda tək qalacaq və məğlubiyyətin tərs şapalağını dadacaq. Çünki artıq Azərbaycan cəmiyyətində radikal müxalifət liderlərinin bəyanatlarına və vədlərinə zombiləşmiş bir ovuc adamdan başqa heç kim reaksiya vermir, ələxüsus, inanmır.

***İnam HACIYEV***

## Səyyar "ASAN xidmət" davam edir



Səyyar "ASAN xidmət" martın 5-dən 17-dək Oğuzda, martın 5-dən 19-dək Xırdalan, Saatlı, Naftalan, Siyəzən, Cəlilabad, Ucar və Salyanda vətəndaşlara xidmət göstərəcək. Bundan başqa, səyyar avtobuslar fevralın 28-dən martın 19-dək Beyləqanda, martın 3-dən 17-dək Sabunçu rayonunun Maştağa qəsəbəsində vətəndaşların xidmətində olacaq.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən AZƏRTAC-a bildiriblər ki, səyyar şəkildə göstərilən xidmətlər Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən təqdim olunur.

Bu xidmətlərə notariat fəaliyyəti, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, əmək pensiyalarının təyin edilməsi, mənzillər üzərində mülkiyyət hüquqlarının ilkin və təkrar dövlət qeydiyyatına alınması barədə çıxarışların, texniki pasportların verilməsi daxildir. Vətəndaşlara, eyni zamanda, daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışların verilməsi, fərdi yaşayış evləri üzərində mülkiyyət hüquqlarının təkrar dövlət qeydiyyatına alınması barədə çıxarışların, texniki pasportların verilməsi ilə bağlı xidmətlər də göstərilir. Səyyar "ASAN xidmət"in həyata keçirilməsinin əsas məqsədləri dövlət xidmətlərinin vətəndaşlara daha rahat, yeni və innovativ üsullarla təqdim edilməsi, vətəndaşlar üçün əlçatanlığın təmini və vətəndaş məmnunluğuna nail olunmasıdır.

## "Petkim" kompleksi "Star" zavodundan illik 100 milyon dollar qazanc əldə edəcək



"Petkim" neft-kimya kompleksi "Star" neft emalı zavodundan illik 100 milyon ABŞ dolları qazanc əldə edəcək. AZƏRTAC xəbər verir ki, bu barədə "Petkim PetroKimya Holding A.Ş."nin icraçı direktoru Anar Məmmədov deyib. O bildirib ki, "Petkim" və "Star" bir-biri ilə inteqrasiya edilmiş müəssisələr olacaq. Bu inteqrasiya nəticəsində "Petkim"in illik 100 milyon dollar əlavə qazanc əldə edəcəyini gözləyirik.

"Petkim" 2017-ci ildə mənfəət baxımından rekord qırdı. Gəlirimiz təxminən 70 faiz, xalis mənfəət isə iki dəfədən çox artıb. İstehsalda məhsuldarlığı artırmaq üçün "Star" neft emalı zavodu ilə birgə investisiyalar qoymağa qərar vermişik. "Star" istifadəyə verildikdən sonra biz naftanı birbaşa boru xətləri bu zavoddan ilə alacağıq. Təkcə logistik üstünlüklər sayəsində illik 60 milyon dollar qazanc əldə edəcəyik", - deyə A.Məmmədov əlavə edib. O qeyd edib ki, Türkiyənin xammala olan tələbatı "Petkim"in istehsalında 5 dəfə çoxdur. Hazırda "Petkim" Türkiyənin tələbatının 20 faizini ödəyə bilir. A.Məmmədov bildirib ki, yanvar ayından etibarən "Petkim" şirkəti "Star" neft emalı zavodunda 18 faizlik paya malikdir və bu, şirkətin bazar gücünə müsbət təsir göstərəcək. Əliağa rayonunda inşa edilən "Star" zavodu 2018-ci ilin üçüncü rübündə istifadəyə veriləcək.

## "The Times Kuwait" qəzeti: "Azərbaycan - Odlar Yurdu"




"The Times Kuwait" qəzetində "Azərbaycan-Odlar Yurdu" sərlövhəli məqalə dərc edilib. Bu barədə AZƏRTAC-a Azərbaycanın Küveytdəki səfirliyindən məlumat verilib. Məqalədə Qafqaz regionunda yerləşən Azərbaycanın Avropa ilə Asiyanı birləşdirən ölkə olduğu qeyd edilib. Bildirilib ki, Şərq ilə Qərb arasında yerləşən bu ölkədə zövq almaq üçün bir çox gözəlliklərlə qarşılaşmaq mümkündür. Xəzər dənizinin sahillərində çimərliklər, istirahət mərkəzləri, Yanardağ və palçıq vulkanları var. Həmçinin məqalədə Azərbaycandakı qədim məscidlər, müasir tikililər, habelə paytaxt Bakının gəzməli yerləri, Qəbələ, Şəki, Astara, Nabran şəhərləri barədə məlumatlar yer alıb.

## "Eurovision 2018" müsabiqəsində səslənəcək mahnımız sosial şəbəkələrdə təqdim olunub

"Eurovision 2018" mahnı müsabiqəsində ölkəmizi təmsil edəcək Aysel Məmmədovanın (AISEL) ifa edəcəyi mahnı sosial şəbəkələrdə təqdim olunub. AZƏRTAC xəbər verir ki, "X my heart" adlı müsabiqə mahnısını yunan bəstəkar və prodüser Dimitros Kontopulos və isveçli Sandra Byorman yazıblar. Xatırladaq ki, Aysel Məmmədova müsabiqənin birinci yarımfinalının ilk hissəsində çıxış edəcək. Qeyd edək ki, sözügedən mahnı müsabiqəsinin yarımfinalları mayın 8-i və 10-da, finalı isə mayın 12-də Lissabonda keçiriləcək.

# Əli Kərimli müxalifətçi gəncləri Cəmil Həsənliyə söydürdü

## AXCP sədrinin "Milli Şura"dakı ruporu özünü pis vəziyyətdə qoydu və qarşı tərəfdən cavabını aldı

***AXCP sədri Əli Kərimlinin "Milli Şura"dakı ruporu rolunu oynayan Cəmil Həsənli sosial şəbəkədə canlı yayımda olarkən, onların çirkin siyasətlərinə dəstək göstərməyən, lakin hakimiyyətə qarşı müxalif mövqedə dayanan şəxsləri aşağılayan ifadələr işlədib. Daha dəqiq desək, C.Həsənlinin özünü müxalifətin "Dədə Qorqudu" adlandırması müxalifətçi gəncləri hövsələdən çıxarıb və zaman-zaman bənzər yersiz ifadələrinə qarşı əks-ifadələr yazılıb. Yazılan cavab statuslarında daha çox Tural Abbaslının "Ağ Partiya", Rəsul Quliyevə yaxınlığı ilə seçilən "Gələcək Azərbaycan Partiya"sının, Sərdar Cəlaloğlunun sədri olduğu ADP-nin, "ADR" və "REAL" hərəkatlarının, eləcə də, digər müxalif mövqeli gənclərin rəyləri nəzərə çarpıb.***

Qeyd olunub ki, bu, həmin C.Həsənlidir ki, məhz 2005-ci ildə deputat mandatına görə sədr müavini olduğu AXCP-yə xəyanət edib, o cümlədən, sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyev həbs edilərkən, onun hüquqlarını müdafiə komitəsinin rəhbəri olub. Eyni zamanda, millət vəkili olarkən, hakimiyyətə dəstək göstərən çoxsaylı məqalələri və kitabları işıq üzü görüb.

### "Milli Şura"nın sədri hədəf olaraq niyə "Ağ Partiya"nı seçdi və onu rənglərə böldü?

Lakin ona sual ünvanlayan jurnalistin Azərbaycan müxalifətinin bəlli kəsiminin gələn ay keçiriləcək prezident seçkilərində iştirak edəcəyi ilə bağlı sualına cavabı daha kəskin etirazlarla müşahidə olunub. "Milli Şura"nın sədri bu cür cavab verib: "Kimdir o partiyalar ki, müxalifətdədirlər və seçkilərə də qatılırlar?"

Maraqlıdır ki, daha çox "Ağ Partiya"ya kəskin cavab verən C.Həsənli daha sonra bildirib: "Ağ Partiya"dır, sarı partiyadır yaxud qırmızı partiyadır nədir, bunların seçkiyə getməyi heç nəyi dəyişmir. Bu partiyanı Biləcəridən o tərəfdə kim tanıyır?"

Beləliklə, sözlərinə və özünə hakim olmağı bacarmadığını deyən siyasiləşmiş "Dədə Qorqud" bununla, nəninki hakimiyyətlə, heç zəif müxalifətlə də siyasi mübarizə aparmaq gücündə olmayan bir fərd olduğunu isbatlayıb. Məsələn, adıçəkilən partiyanın sədri Tural Abbaslı və tərəfdarları Ə.Kərimlinin ruporuna yazdıqları rəy cavablarında bildiriblər ki, AXCP C.Həsənli, 2013-cü ilin prezident seçkilərində bu gün "Ağ Partiya"da cəmləşən bir sıra gənclərin sona qədər onun yanında olduqlarını, onun seçki təbliğatında əllərindən gələni etdiklərini unudub. "C.Həsənli ittihamlara cavab vermək əvəzinə, ona suallar verən, tənqid edən gəncləri ya bloklayır, ya da dostluqdan çıxarır. Bununla işini bitmiş hesab edir"-deyə statuslarda bildirilib.



### Tural Abbaslının Cəmil Həsənliyə cavabı sərt və acımasız oldu: "Əli Mirəliyev Cəmil Həsənlidən beş dəfə, Röya 10 dəfə məşhurdur"

Bu arada T.Abbaslı da müxalifətyönlü mətbuata açıqlamasında sözügedən olaya sərt münasibət bildirib və qeyd edib ki, özünü ciddi hesab edən bir siyasətçi bu tərzdə çıxış edə bilməz. SİTAT: "Nə Cəmil Həsənlidən, nə də onun "liderindən" "müxalifət lisenziyası" almaq fikrində deyilik. Belə bir öhdəliyimiz də yoxdur. Bu səlahiyyəti onlara heç kim verməyib. Onu qınamıram, çünki ətrafındakılar onu elə atmosferə salıblar ki, özünü tamam itirib, Azərbaycanın Nelson Mandelası olduğunu düşünür. Cəmil müəllimdən soruşmaq lazımdır ki, neçə ildir siyasətdədir və siyasətə necə gəlib? Ümumiyyətlə, siyasətin nə olduğunu bilirmi? Yaxud mitinqlərin, seçkilərin nə olduğundan anlayışı varmı? Mitinqi bir kənara qoyuram, bir piket belə təşkil edibmi, bir strukturda təmsil olunubmu? Bunları etsin, ondan sonra gəlsin, bizə ağıl öyrətsin".

"O, intellektinin, məntiqinin olmadığını göstərir. Guya ki, bizə sarı, qırmızı və ya digər rənglər deyəndə, nəyimiz dəyişir?"-deyə sual edərək, "Milli Şura"nın "milli şuriklər" adlandırıldığını xatırladıb və onu da qeyd edib ki, belə bir "siyasətçinin" təfəkkürü, ümumiyyətlə, yoxdur.

"Milli Şura" sədrinin ayağısürüşkənliyini də xatırladan T.Abbaslı təəssüflə deyib ki, bu gün Azərbaycan siyasətinin onun kimi "müxalifətçilərin" əlində qalması bədbəxtlikdir: "Bizim tanınmadığımızı deyir. 36 yaşım var və bunun yarısı siyasətdə keçib. Onun 16 ilini Cəmil Həsənli və onun kimilərini tanıtmaqla keçirmişəm. Ona görə özümüzü tanıtmağa vaxtımız olmayıb...Bizi Biləcəridən o tərəfə tanımırlar deyir, Biləcəri də bizimdir. Qoy bizi Biləcəriyə qədər tanısınlar. Tanınmaq kimi bir problemimiz yoxdur. Cəmil Həsənli qoy Röya, Elza Seyidcahanla yarışsın, görək hansı daha çox tanınır? Əgər siyasətçi olmaq tanınmaqla ölçülürsə, o zaman Əli Mirəliyev Cəmil Həsənlidən beş dəfə, Röya 10 dəfə məşhurdur".

Beləliklə, qənaətə gəlmək mümkündür ki, C.Həsənlinin siyasi "parovozunun" kömürü tükənib və onun Ə.Kərimlinin yanına geri dönməsi, daha doğrusu, yenidən qucağına oturması qoca professorun, yaxud saxta "Dədə Qorqudun" bəlli sifətlərini daha çox ifşa edib. Hər halda, özünə hörmət qoya biləcək bir siyasət adamı, əsla və kimliyindən asılı olmayaraq, özünü bu qədər ucuz və polyaçi tipdə göstərməməlidir...

**Rövşən NURƏDDİNOĞLU**

# Müsavatın AXCP -"Milli Şura" cütlüyünə dəstəyi qeyri-səmimidir

## ADP sədri: "Bunların arasında 25-30 ildir daxili ziddiyyətlər var"

***"Milli Şura"nın sədri Cəmil Həsənlinin sosial şəbəkə vasitəsi ilə radikal düşərgənin adıçəkilən qurumda təmsil olunmayan partiyaları və s. təşkilatlarla birgə mitinqlərin keçiriləcəyi barədə verdiyi anons ilk gündən inandırıcı təsir bağışlamadı. Misal üçün, "REAL" hərəkatı ilə anlaşmanın olduğu bildirilsə də, adıçəkilən müxalif hərəkatın səlahiyyətliləri bunu inkar edir, sadəcə, düşünəcəklərini deyirlər.***

Çünki C.Həsənlinin bu barədə fikir bildirməsindən öncə, ənənəvi düşərgədə birgə mitinq taktikası müzakirə olunduğu vaxtlarda, "REAL" təmsilçisi Natiq Cəfərli "Milli Şura"nın mitinqlərində iştirak etməyəcəklərini, hətta iştirak etməyin "ağılsızlıq" olduğunu dilə gətirmişdi. Bundan sonra hərəkat aksiyalara qoşulmaq qərarını verərsə, bu zaman N.Cəfərli, necə deyərlər, "tüpürdüyünü yalamış" olar, həmçinin, dolayısı ilə "ağılsız" olduqlarını sərgiləyər. Bu baxımdan, "REAL" hərəkatının "Milli Şura"nın mitinqlərinə qatılacağı elə də inandırıcı görünmür.

### Uzun illər davam edən ziddiyyətlər

Digər tərəfdən, ortada Müsavat amili də dayanıb. Hələ AXC-Müsavat iqtidarı dönəmindən, daha doğrusu, hakimiyyətdə olduqları vaxtdan yola getməyən bu siyasi qurumlar arasında münasibətlər isti olmayıb. Xüsusilə, Elçibəyin AXC lideri kimi iqtidarda olduğu bir zamanda, hakimiyyət daxilində ikinci hakimiyyət quran İsa Qəmbərin Müsavat partiyasını yaratması zamanından, münaqişələrə start verilmişdi. Həmin münaqişələr sonrakı illərdə - AXC AXCP-yə çevriləndən və Müsavatla birgə müxalifət cinahına keçdiyi vaxtlardan da davam etdi. Məhz bu kimi olayların sayı onlarladır və partiyalararası ziddiyyətlər hazırkı dövrlərə qədər davam etməkdədir. Bu baxımdan, Müsavatın AXCP sədri Əli Kərimlinin nəzarətində olan "Milli Şura"nın mitinqlərinə qatılması qeyri-səmimi təsir bağışlayır.




### İddia: "REAL" Müsavat-AXCP birliyinə heç zaman qoşulmaz"

Bu arada, ADP sədri Sərdar Cəlaloğlu müxalifətyönlü mətbuata verdiyi müsahibəsində bu məsələyə toxunaraq, deyib ki, Müsavat və AXCP arasındakı ittifaqın uzunömürlü olması mümkün deyil. "Bunların arasında 25-30 ildir daxili ziddiyyətlər var" - deyə qeyd edən ADP sədri "REAL"-ın da aksiyalara qoşulacağına inanmadığını bildirib və iddia edib ki, "REAL" Müsavat-AXCP birliyinə heç zaman qoşulmaz". Partiya sədri bunu hər üç siyasi qurumun baxışlarının üst-üstə düşməməsi ilə əlaqələndirib. Hətta xatırladıb ki, İ.Məmmədov həbsdədir, amma "REAL" seçkiləri boykot etməyib. AXCP isə boykot qərarı verib. Bu xüsusda, həm də belə qənaətə gəlmək mümkündür ki, "Milli Şura"nın hay-küylə birgə mitinq anonsları etməsi radikalların növbəti dəfə arxı hoppanmamış "bərəkallah" deməsi məsələni xatırlatmış olur.

**R. RƏSULOV**



# Kərimlinin yeni sərgüzəştləri

**AFƏT**

*Cuma-cuma, Kərimli,*
*Keç hücuma, Kərimli.*
*"Əmi"n baxır, "dayı"n baxır,*
*Top sənindir, Kərimli.*

***Həəə, sizə kimdən deyim, kimdən xəbər verim, Əli Kərimli və onun tör-töküntüdən ibarət olan muzdlu dəstəsindən. İldə, heç olmasa, bir neçə dəfə - hə qoç igidlərim, meydan bizimdir, haydı, çıxın meydana varlığımızı sübut edək, - deyir Kərimli. Neyləsinlər, bunu etməlidirlər. Axı xaricdə oturan "əmi"lər, "dayı"lar onların necə oyun nümayiş etdirəcəyini gözləyirlər. Onlar da gözdən pərdə asmalıdırlar ki, biz hələ süquta uğramamışıq, varıq, yaşayırıq və... Vəsi odur ki, özlərini gözə soxmaqdan ötrü əllərini başlarına atıb qışqırbağır salıb mitinq keçirməkdir.***

Öz aramızdı, adamın heç dili də gəlmir ki, mitinq desin. Mitinq sözünün xətrinə dəyməyim, amma neyləyək ki, mütləq şəkildə bu sözü işarələməliyik. Çünki sosial şəbəkələrdə ağızdolusu özləri mitinqə çağırışlar edirlər. Hər dəfə olduğu kimi, bu dəfə də adətlərinə sadiq qalaraq, mitinqöncəsi yenə asıb-kəsməyə, yağmasalar da, guruldamağa əl atıblar. Bəlkə də yazıqlar bununla gündəmə gəlmək və gündəmdə qalacaqlarına ümid bəsləyirlər. Biri saçını yolur, digəri üzünü cırır, çifayda. Qəbul eləmək istəmirlər ki, hər kəs onların qurduğu oyun kambinasiyasını artıq əzbərdən bilir. İnsanlar da onların həyasızcasına qışqırbağırlarından, uğursuzluqlarından bezib və bunun da mənasız olduğunu görür.

Yaxşı, onda belə bir sual meydana çıxır: Kərimli və komandasına planlaşdırdıqları mitinqə kim dəstək olacaq? Bu dəfə kimlərin cibini yağlayıb, özləriлə küçələrə çıxara biləcəklər? Orasını da deyim ki, artıq orta və yaşlı nəslin nümayəndələri onların hansı mənsəbə qulluq etdiklərini və hansı potensiala malik olduqlarını yaxşı bildikləri üçün artıq qıraqlarını qatlayıblar. Neyləsinlər, əlac qalıb məram və məqsədlərini anlamayan gənclərə. Kərimli və komandası artıq keçiblər başqa taktikaya və bu taktikadan yararlanmağa cəhd edirlər. Həmin gəncləri öz sıralarına cəlb etməkdən ötrü hər zaman mitinqdən əvvəl bəlağətli, bərbəzəkli, pafoslu çıxışlar etməklə, onları ətraflarına toplamağa cəhd edirlər. Amma öz aramızdı, mən ölü, siz də diri, baxacaqsız ki, yenə cəhənnəm deyib, əvvəllər aşağı-yuxarı bir 500 nəfərə qədər adam yığırdılarsa, indi heç 100 nəfər də olsun, toplaya bilməyəcəklər. Daha kabab iyinə gələn olmayacaq, Kərimli.

TƏRS BAXIŞ

# İsa Qəmbər mitinqə xərəklə qatılacaq?

*Yaxud bir atalar misalının yeri...*



**"Milli Şura"nın martın 10-da keçirmək istədiyi mitinqi ətrafında ciddi təlaşa düşməsi artıq açıq şəkildə görünməkdədir. Məsələ ondadır ki, bu qurumda təmsil olunan tərəflər hərəsi bir yandan sosial şəbəkədə mitinq çağırışları edərək, insanların sanki zorla öz lüzumsuz tədbirlərinə qatılmasını istəyirlər. Xüsusilə, Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli və s. siyasətbazlar toplumu bir mövzu ətrafında dəfələrlə çağırışlar edib və ciddi narahatlıqlarını gizlədə bilmirlər.**

**Sabiq müsavatçı mənbə: "İsa Qəmbərin vəziyyəti heç də yaxşılığa doğru getmir, əksinə, o, ciddi həkim nəzarəti altındadır"**

Bununla yanaşı, digər bir məsələ diqqəti cəlb edib. Daha doğrusu, Müsavatın başqanı Arif Hacılı sözügedən əsnada iddia edib ki, Türkiyədəki Hacettepe Universitetinin xəstəxanasında yatan İsa Qəmbərin səhhəti "sürətlə yaxşılaşmağa doğru gedir". Məhz belə bir fikirlə gündəmə çıxan müsavatçı başqan, əslində, sabiq başqanın səhhətinin heç də yerində olmadığını dolayısı ilə təsdiq edib. Bu zaman belə bir məntiqi fikir yaranır: A.Hacılı bir tərəfdən Müsavat partiyasının media orqanı olan "Basta"da mitinq çağırışı edir, digər tərəfdən də, Türkiyədə İ.Qəmbərin yanında olduğunu deyir. Sanki həkimlərin yerinə rəy verən Hacılı falçılıq edərək, sabiq başqanın "sağalacağını" iddia kimi irəli sürür. Fəqət, etibarlı mənbələr tamamilə başqa fikirdədirlər. Misal üçün Müsavat partiyasının sonuncu qalmaqallı qurultayından sonra başqan seçkilərinin nəticələri ilə razılaşmayaraq, oranı tərk edən və hazırda Qubad İbadoğlunun rəhbərlik etdiyi "ADR" adlı qurumda rəhbər vəzifələrdən birini tutan şəxsin (adının açıqlanmasını israrala istəmədi-R.R.) dediyinə görə, vəziyyət A.Hacılının dediyi kimi deyil: "İsa Qəmbərin vəziyyəti heç də yaxşılığa doğru getmir, əksinə, o, ciddi həkim nəzarəti altındadır".

**Arif Hacılı özü-öz sözlərini belə təkzib edir: "Ya bu həftənin sonu, ya da..."**

Başqa tərəfdən, həmin fikirlərə diqqət yetirərsək, görərik ki, A.Hacılı da, əslində, özü-öz sözlərini "vuraraq", İ.Qəmbərin vəziyyətinin normala doğru getmədiyini iddia edir. Ona görə də, dəqiq vaxt deyə bilməyərək, yalnız fikirlərini bu cür tamamlayır: "Ya bu həftənin sonu, ya da gələn həftə Bakıya qayıtması gözlənilir". Yəni İ.Qəmbər Bakıya dönməyə də bilər, hətta dönərsə belə, ağır vəziyyətdə...

Beləliklə, ortaya çıxan digər maraqlı məqam həm də budur ki, "Milli Şura"nın mitinqinə qatılacaqlarını car çəkən A.Hacılının nə özünün, nə də İ.Qəmbərin həmin teatralizə olunmuş siyasi tamaşaya qatılacaqları böyük sual altında qalıb. Uzaqbaşı A.Hacılı bu mitinqə İ.Qəmbəri xərəkdə gətirə bilər ki, yalnız bu halda, mitinqdə iştirak edə bilsin. Hər halda, ataların belə bir kəlamını xatırlatmaq da olar - nə tökərsən aşına, o da çıxar qaşığına!

***Rövşən RƏSULOV***

***P.S. Çox yəqin ki, bilən, haraya işarə etdiyimizi yaxşı anladı...***

# Partiya deyil, gəlir mənbəyidir

*Partiya üzvlərini düşünməyən xalqı düşünərmi?*

**Xaricdəki anti-Azərbaycan qüvvələrlə sıx əməkdaşlıq edən dağıdıcı müxalifət düşərgəsində qarşıdurmalar, ziddiyyətlər və qarşılıqlı ittihamlar davam edir. Düşərgə, sözün həqiqi mənasında, ciddi böhranla üz-üzədir. Bir müddət də belə davam edərsə, qondarma partiya liderlərinin ətrafına toplaşan beş-üç aldadılmış şəxslər də onları tərk edəcəklər. Beləliklə, yaratdıqları yalançı təşkilatlarda "bir papkasından və bir də sədrindən" başqa kimsə qalmayacaq.**



Təbii ki, müxalif partiyalarının dağılmasının tutarlı səbəbləri var. Özlərini cəmiyyətə dağıdıcı düşərgənin aparıcı siyasi partiyaları kimi təqdim etməyə çalışan Müsavat və AXCP, öz fəaliyyətlərini siyasi təşkilat kimi deyil, gəlir mənbəyi kimi baxırlar. Müsavat partiyası ilə AXCP arasında heç vaxt birlik olmayıb və olmayacaq da. Bunu özləri də etiraf edirlər. Əvvəllər onların bir yerdə olması gözdən pərdə asmaq üçün oyun idi və burada da xalq, dövlət maraqları deyil, şəxsi maraqlar rol oynayırdı. Bu yolla onlar xarici qüvvələrdən hansısa təminatlar ala və nə qopara biləcəkləri haqqında düşünürdülər. Amma Müsavat partiyasının "Milli Şura"nı tərk etməsi ilə onların arasındakı gərginlik bir qədər də dərinləşmiş oldu. Müsavatın keçmiş başqanı İsa Qəmbər xəstəxanaya yerləşdirilərkən, bir çox tərəfdaşları onu ziyarət etdiyi halda, Əli Kərimlinin insani prinsiplərdən uzaq qalması münasibətlərin düşmənçilik səviyyəsində olduğunu göstərdi.

Son proseslərdə də bu iki təşkilatın bir-birinə nə qədər nifrət etdiyinin bir daha şahidi olduq. Bunların marağı Azərbaycanda ictimai-siyasi sabitlik, inkişaf yox, öz şəxsi maraqları düşündürür. Bunlar siyasəti gəlir mənbəyinə və maddi gəlirlərinin təmin olunması üçün bir vasitəyə çeviriblər. Burada da maddi maraqlar toqquşanda, bir-birini hər cür vasitə və üsüllardan istifadə etməklə, sıradan çıxarmağa çalışırlar.

**Müsavat və AXCP növbəti rüsvayçılığın astanasındadır**

Birmənalı şəkildə demək olar ki, Müsavat ilə AXCP arasında baş verən gərginlik hər iki partiya rəhbərinin qarşısıalınmaz iddialarından qaynaqlanır. Bu liderciklərin əsas məqsədləri müxalifət düşərgəsində liderliyi ələ keçirmək və hər biri özünün birinciliyini təsdiq etmək fikrindədir. Yerdə qalanları isə öz iradələrinə tabe etməkdir. Bu iki partiya funksionerlərinin gah açıq, gah da gizli siyasi rəqabəti, nəticə etibarilə, dağıdıcı müxalifəti bir-birinin ardınca məğlubiyyətə uğradır. Əvəzində isə, bu iki "lider"in heç biri nə baş verənlərə görə məsuliyyət daşımır, nə də başqanlıq etdikləri partiya üzvləri qarşısında hesabat vermirlər. Bu səbəbdən də, sıraları get-gedə əriməkdədir. Bu qədər uğursuz fəaliyyətlərinə daha yeni birini əlavə etmək astanasındadırlar. Martın 10-na planlaşdırdıqları mitinqin uğursuzluğa düçür olacağını indidən demək olar. Çünki yenə də eyni simalar, eyni sözlər və eyni çağırışlar olacaq. Sadəcə, başağrısı. Bu baxımdan, mitinq şousu baş tutmayacaq və yenə də onlar cəmiyyətin məsxərə obyektinə çevrilmiş olacaqlar. Bu, onların acı alın yazısıdır. Özlərinin biabırçı talelərini özləri müəyyənləşdirirlər.

***Afət TAHİRQIZI***

## Satqının adı üstündədir

Orduxan Temirxan, Məhəmməd Mirzəli,
Hər sözü vay-şivən, şər-böhtan, hərzəli,
Bu fərdlər bossların cibinə daraşmış bir zəli,
Ağaları həlimdirlər əzəl gündən onlarla,
Qrantları çatdırırlar öz vaxtında dollarla.

Peşələri gecə-gündüz düzü əyri yozmaqdı,
Qıpqırmızı üzə durub bədnam plan cızmaqdı,
Məqsədləri seçkilərin gedişini pozmaqdı,
Əllərində Müsavatın mühacir vərəqəsi,
Yedikləri misterlərin atdığı sədəqəsi.

Biri "boykot-boykot" deyir, tərpənmədən yerindən,
O birisi ləzzət alır böhtanından-şərindən,
Üçüncüsü bir müsyöyə yalmanır hünərindən,
Özlərinə əl qatarlar canlarına qıymadan,
Zingildərlər küçüklər tək daim yaldan doymadan.

***VALEH***

## Şirvan sakinindən xeyli silah-sursat götürülüb



Polis əməkdaşları əllərdə qanunsuz saxlanılan odlu silah-sursatın aşkar edilməsi istiqamətində növbəti əməliyyat tədbiri həyata keçiriblər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə Şirvan şəhərində Mehman adlı şəxsin yaşadığı evdə qanunsuz olaraq odlu silah-sursat gizlətməsi barədə məlumat daxil olub. Baş İdarə əməkdaşlarının keçirdikləri təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində həmin şəxs - Şirvan şəhər sakini, əvvəllər məhkum olunmuş Mehman Kamalbəkov saxlanılıb. Həmin şəxsin yaşadığı evə baxış zamanı "TOZ" 8 markalı tüfəng, kustar üsulla lülə̈si kəsilmiş ov tüfəngi və ona aid 7 patron və sandıqçasında 6 patron olan "Revolver" tipli tapança aşkarlanaraq götürülüb. Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

## Sumqayıtda bir ailənin altı üzvü dəm qazından boğulub

Martın 4-də Sumqayıt şəhəri, 5-ci məhəllə, ev 18/11 ünvanında yerləşən binanın zirzəmisində yaşayış yeri kimi istifadə olunan sahədə 1961-ci il təvəllüdlü Hüseynov Rafiq Kamal oğlunun, 1965-ci il təvəllüdlü Hüseynova Yeganə Yolçu qızının, 1987-ci il təvəllüdlü Hüseynova Sara Rafiq qızının, 2009-cu il təvəllüdlü Abbasov Fərid Qüdrət oğlunun, 2010-cu il təvəllüdlü Abbasova Zemfira Qüdrət qızının və 2012-ci il təvəllüdlü Abbasova Yeganə Qüdrət qızının meyitlərinin aşkar olunması barədə daxil olmuş məlumat əsasında dərhal hadisə yerinə və meyitlərə məhkəmə-tibb ekspertinin iştirakı ilə prokurorluq və polis əməkdaşları tərəfindən baxış keçirilərək maddi sübutlar götürülüb və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, meyitlərin müayinəsi zamanı ilkin əlamətlərə əsasən həmin şəxslərin dəm qazından zəhərlənərək ölmələri ehtimalı olduğundan fakta görə Sumqayıt Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 314.3-cü (səhlənkarlıq iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb, məhkəmə-tibbi və digər ekspertizalar təyin edilib. Hazırda hadisənin başvermə səbəblərinin və digər zəruri halların müəyyənləşdirilməsi istiqamətində təxirəsalınmaz istintaq tədbirləri davam etdirilir.

## İtaliyada keçirilən parlament seçkilərinin ilkin nəticələri açıqlanıb

Martın 4-də İtaliyada keçirilmiş parlament seçkilərinin ilkin nəticələri açıqlanıb. AZƏRTAC "francetvinfo.fr" saytına istinadla bildirir ki, seçkilərdə sağ mərkəzçi partiyaların koalisiyası 31-41 faiz aralığında səs toplayıb. Belə olan halda koalisiya yeni parlamentin yuxarı palatasında çoxluq təşkil edə bilməyəcək. Partiyalara gəldikdə isə birinci yerdə 29-32 faiz səslə "Beş ulduz" hərəkatı qərarlaşıb. Demokratlar Partiyasının isə seçicilərin 21-23 faizinin səsini toplamağa nail olub.

# Azərbaycanda əmək hüququ:
## əmək intizamı və maddi məsuliyyət

***Əmək intizamı əmək münasibətləri iştirakçılarının müəyyən davranış qaydalarının məcmusudur. Əmək intizamı normal səmərəli iş üçün lazımi təşkilati və iqtisadi şərtlərin yaradılması ilə təmin edilir. Əmək funksiyasının yüksək peşəkarlıq səviyyəsində yerinə yetirilməsində, müəssisədaxili intizam qaydalarına əməl edilməsində fərqlənmiş işçilərə:***

- pul və ya qiymətli əşyalar hədiyyə verilir;
- əlavə məzuniyyət verilir;
- əmək haqqına əlavələr edilir;
- daha yüksək məbləğdə sığorta edilir;
- sanatoriya-kurort müalicəsi, turist səfərləri yollayışının haqqı ödənilir;
- müəyyən edilmiş qaydada dövlət təltifinə təqdim olunmaq barədə vəsatət qaldırılır və mükafatlandırılırlar.

İşçilərinin aşağıdakı əsas vəzifələri vardır:

- onun, bilavasitə rəhbərinin göstərişlərini, habelə, onunla bağlanmış əmək müqaviləsinin müəyyən etdiyi xidməti vəzifələrini (əmək funksiyasını) dəqiq və vicdanla yerinə yetirmək;
-ona məlum olan və ya ola bilən cəmiyyətin məxfi məlumatlarını ciddi qorumaq;
- müəssisənin mülkiyyətinə qənaətlə yanaşmaq və onu qorumaq;
-öz iş yerini, təhkim edilmiş əmlak və avadanlığı, habelə, verilmiş ləvazimatı təmiz və saz vəziyyətdə saxlamaq, işlədiyi xidməti otaqda və ümumiyyətlə, təmizliyə riayət etmək;
-maddi dəyərlilərin və sənədlərin, müəyyən olunmuş saxlama qaydalarına şərtsiz riayət etmək;
-iş yoldaşlarının hüquqlarına hörmətlə yanaşmaq, qanuni mənafelərini pozmamaq;
-öz vəzifə səlahiyyətləri çərçivəsində normativ-hüquqi sənədləri bilmək və öz işində tətbiq etmək;
-əməyinin məhsuldarlığını, peşəsinin və ya ixtisasının səviyyəsini artırmaq və əmək funksiyasının yerinə yetirilməsi keyfiyyətini daim yaxşılaşdırmaq;
-əmək qanunvericiliyinin tələblərinə əməl etmək.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 184-cü maddəsində göstərilir:

1. Əmək və icra intizamı işin, xidmətin xarakterinə görə aşağıdakı müəssisələrdə tərəflərin məsuliyyətini artırmaq məqsədi ilə intizam nizamnamələri ilə tənzim edilir:

a) dəmir yolu və rabitə müəssisələrində;

b) dəniz və çay nəqliyyatında, habelə, balıqçılıq təsərrüfatının su nəqliyyatı donanmasında;

c) hava nəqliyyatında və onun xüsusi xidmət müəssisələrində;

ç) xüsusi təhlükəli şəraitli yeraltı işlər görülən iş yerlərində, habelə, dağ-mədən sənayesi müəssisələrində ;

d) dənizdə neft və qaz ehtiyatlarının kəşfiyyatı və istismarı ilə məşğul olan müəssisələrdə;

e) hərbi sənaye müəssisələrində.

2. İntizam nizamnamələrində yalnız bu məcəllənin "Əmək və icra intizamı" bölməsi ilə müəyyən edilmiş normalardan fərqli müddəalar nəzərdə tutula bilər. İntizam nizamnamələri mövcud olan müəssisələrdə digər əmək münasibətləri isə bu məcəllə ilə tənzimlənir.

3. İntizam nizamnamələri qanunvericilikdə nəzərdə tutulmuş qaydada həmkarlar ittifaqları təşkilatının iştirakı ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəbul edilir.

Mükafatlandırılma tədbirlərindən fərqli olaraq, əmək intizamının pozulmasına görə müəssisə, idarə və təşkilatın müdiriyyəti aşağıdakı tənbeh tədbirləri görə bilər:

xəbərdarlıq;

töhmət vermək;

sonuncu xəbərdarlıq verilməklə şiddətli töhmət;

işdən çıxarma.

Xəbərdarlıq intizam tənbehi sayılmır.

İntizam tənbehi yalnız işçi ilə əmək müqaviləsi bağlamaq səlahiyyətinə malik olan işəgötürən tərəfindən verilə bilər.

İntizam tənbehi verilməmişdən əvvəl işəgötürən, işçidən yazılı izahat tələb edir.

Bir intizam xətasına görə yalnız bir intizam tənbehi verilir. İntizam tənbehi işçiyə, işdə olduğu iş günü ərzində verilə bilər. Məzuniyyətdə, ezamiyyətdə olan, əmək qabiliyyətini müvəqqəti itirmiş işçiyə bu müddət ərzində intizam tənbehi verilə bilməz.

İntizam tənbehi əməlin aşkarlandığı vaxtdan bir ay müddətində verilə bilər.

İntizam tənbehi verilən gündən altı ay müddətində qüvvədə olur. Bu müddət ərzində işçi yeni bir xəta törətməzsə, o, intizam tənbehi almamış hesab olunur.

Əmək münasibətləri prosesində əmək müqaviləsi üzrə işəgötürən və işçi öhdəliklərini yerinə yetirərkən, birinin digərinə vurduğu ziyana görə qarşılıqlı maddi məsuliyyət daşıyırlar.

Maddi məsuliyyət, işçinin üzərinə o halda qoyula bilər ki:

ziyanın, həqiqətən, vurulduğu aşkar edildikdə;

təqsirkarın əməli, yəni hərəkəti və ya hərəkətsizliyi qanuna zidd olduqda;

təqsirkarın qanuna zidd əməli ilə bu əməlin nəticəsi arasında səbəbli əlaqə olduqda.

Əmək qanunvericiliyi maddi məsuliyyətin əsas 2 növünü, tam və qismən ödənilməsini nəzərdə tutur.

Qismən maddi məsuliyyət növündə işçilər ziyanı əvvəlcədən müəyyən olunmuş hədlərdə ödəyirlər. Bir qayda olaraq, belə müəyyən olunmuş hədd orta aylıq əmək haqqı qismində nəzərdə tutulur.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 199-cu maddəsində işçinin tam maddi məsuliyyətinin 7 halı göstərilib.

Saxlanmaq və başqa məqsədlər üçün işçiyə verilmiş əmlakın və digər sərvətlərin salamatlığını təmin etməyə görə əmək müqaviləsi bağlanarkən, habelə, əmək münasibətləri prosesində əmək funksiyasının xarakteri ilə əlaqədar olaraq işçinin öz üzərinə tam maddi məsuliyyət götürməsi haqqında işəgötürənlə yazılı müqavilə bağlandıqda;

İşçi əmlakı və digər sərvətləri birdəfəlik etibarnamə və ya digər birdəfəlik hüquqmüəyyənedici sənədlər əsasında işəgötürənə, yaxud onun nümayəndəsinə hesabat vermək şərtilə qəbul etdikdə.

İnzibati hüquqpozmalar haqqında, yaxud cinayət, habelə, vergi qanunvericiliyi ilə cəza verilməsi nəzərdə tutulmuş hərəkət və ya hərəkətsizliyində ictimai təhlükəli əməllərin əlamətləri olduqda;

Əmlakını və ya digər maddi sərvətləri qəsdən korladıqda, məhv etdikdə;

Alkoqol, toksik (zəhərli) və ya narkotik maddələrdən sərxoş vəziyyətdə ziyan vurduqda;

İşəgötürənin kommersiya sirrini yaydıqda;

İşəgötürənin şəxsiyyətini ləkələyən, şərəf və ləyaqətini alçaldan, böhtan və təhqirlərlə onun sahibkarlıq fəaliyyətinə ciddi xələl gətirən mənəvi ziyan vurduqda.

İşəgötürənə vurduğu ziyanın məbləği işçinin orta əmək haqqından çox deyildirsə, onun tutulması işəgötürənin əmri ilə həyata keçirilir.

Əgər işçi ziyanı tam maddi məsuliyyət daşıdığı hallarda vurmuşdursa, onun məbləği isə işçinin orta aylıq əmək haqqından çoxdursa və işçi onu könüllü olaraq ödəməkdən imtina edirsə, onda işəgötürənin müraciəti əsasında həmin ziyan məhkəmə qaydasında ödənilə bilər.

Bu halda, məhkəmə təqsirlilik dərəcəsini, konkret şəraiti, işçinin maddi vəziyyətini və iş üzrə əhəmiyyət kəsb edən digər halları nəzərə alaraq, müəyyən olunmuş ziyanın məbləğini azalda və ya ziyanın məbləğinin azaldılması barədə tərəflərin barışıq sazişini təsdiq edə bilər.

Konkret məqsədlə cinayətkarcasına vurulmuş ziyanın ödənilməsinin təmin olunması müvafiq prosessual tədbirlərlə həyata keçirilir.

Qanunvericilik işəgötürənin işçiyə vurduğu ziyana görə də maddi məsuliyyətini müəyyən etmişdir.

Səlim Özdəmir "Səmərəli iş həyati" kitabında yazır ki, daxili nizam-intizamı təkmilləşdirmək və bununla da, evin bünövrəsini bərkitmək istəyiriksə, müəyyən məqamlara fikir verməliyik.

· İstədiyiniz bir şeydən imtina etməyin, onu müəyyən müddətə tezləşdirin; çünki ondan imtina etsəniz belə, o, sizin ağlınızdan çıxmayacaqdır.

· Özünüzə tam sərbəstlik verməyin, özünüzü bəzi işləri həyata keçirməyə məcbur edin; sərbəst olmaq rahatlaşmağa gətirib çıxarır.

· Hadisələrə yalnız müsbət yanaşmaqla ruhunuzu həmişə müsbət mövqedə saxlayın; maqnitin əks qütbləri bir-birini çəkdiyi kimi, mənfi amilləri də müsbət mövqeyə çəkərək, onları zərərsizləşdirməyə çalışın.

· Şüar və kredolardan istifadə edin; dərin və mənalı fikirlərin icmalı olan faydalı şüarlar həyat yolunuzu tənzimləyən işıqfor rolunu oynayacaq.

· Daxili intizamınızı pozan amillərdən uzaq durmağa çalışın; "yox" deməyi bacarın, bəzi hallarda ən yaxın adamlarınızdan belə sizə ziyan dəyə biləcəyini nəzərə alın.

· Hər şeyin beyində başladığını və qurtardığını yaddan çıxartmayın;

· Daxili intizamı təmin etmək üçün bir standart seçin; problemlərlə aşıb-daşan həyatımızı, eləcə də, daxili dünyamızı nizamlamaq üçün ən etibarlı vasitə inamdır.

· Lazımi qədər güc-qüvvət toplamadıqca mübarizəyə girişməyin; gözləmə mövqeyində dayanmaq ağılsız hərəkətlərdən daha faydalı olur.

· Əzmkar və məqsədyönlü olun; ümidsizlikdən sağ-salamat çıxmaq üçün əzmkar olmaq lazımdır.

· Özünüz üçün bir neçə maddəlik daxili nizam-intizam qaydaları tərtib edin; bu qaydalara riayət etmədiyiniz halda, özünüzü cəzalandırın.

· Bir işi görmək üçün zəruri və kafi şərtlər təmin olunubsa, gecikmədən o işi yerinə yetirin; çünki həyata keçiriləcək bir sıra işlər sizi gözləyir.

· Bir işi çətinlik çəkmədən görmək istəyirsinizsə, qırx gün fasiləsiz o işi təkrar edin; çünki az və davamlı bir iş çox sıx, amma fasilələrlə görülən bir işdən daha faydalıdır.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## *Xəbərdarlıq:* Çox sosiska yemək döş xərçəngi yaradır!



Son araşdırmalar göstərir ki, insanlar həddən çox sosiska yedikdə döş xərçənginin yaranma riski artır. Medicina.az-ın yazdığına görə, alimlər 260 mindən çox qadın üzərində araşdırma aparıblar. Döş xərçənginə tutulan qadınların əksəriyyətinin həftədə ən azı 2 dəfə sosiska yedikləri məlum olub. Qeyd edək ki, son illər qırmızı ətin də xərçəng xəstəliyinə səbəb olduğu deyilirdi. Amma aparılan araşdırmalar bunun əksini göstərib. Bir sözlə, qırmız deyil, "preslənmiş ətlər" insan orqanizmi üçün ziyandır və həmin ətlər döş xərçəngi riskini artırır.

## Kim daha çox yatmalıdır - qadın yoxsa kişi?



Normal yuxu insanın sağlamlığı üçün ən vacib olan amillərdən biridir. Yuxunun az və ya keyfiyyətsiz olması, xroniki yuxusuzluq insan orqanizminə ciddi ziyan vurur - ürək-damar və sinir sistemləri xəstəliklərinin, şəkərli diabetin, hətta xərçəngin riskini artırır, immun sistemini zəflədir. Saglamolun.az xəbər verir ki, alimlərin fikrinə görə, normal gecə yuxusu 6 saatdan az olmamaldır.

Lafboro Universiteti (Böyük Britaniya) nəzdində Yuxu araşdırması mərkəzinin alimləri xüsusi araşdırma zamanı aşkar ediblər ki, qadınlar kişilərlə müqayisədə daha çox yatmalıdır.

Alimlər bunu qadinların beynində neyron əlaqələrinin strukturunun daha mürəkkəb olmağı ilə əlaqələndirir. Məhz bu səbəbdən qadınların əksəriyyəti eyni zamanda bir neçə iş görə bilir, bir neçə problem haqqında fikirləşməyi bacarır. Bu zaman beyin güclü yüklənir ki, ona istirahət etmək üçün daha çox vaxt tələb olunur.

Bundan əlavə qadınların sinir sistemi kişilərlə müqayisədə daha həssasdır ki, bu səbəbdən yuxunun az olması qadınlar üçün daha ziyanlıdır. Alimlərin fikrinə görə, qadınlar orta hesabla kişilərdən 30 dəqiqə çox yatmalıdır.

## Azərbaycanın qadın həndbolçuları açıq Avropa turnirində mübarizə aparacaqlar

EHF
EUROPEAN HANDBALL FEDERATION

İyulun 2-dən 6-dək İsveçin Höteburq şəhərində keçiriləcək qadın həndbolçular arasında 16-cı açıq Avropa turnirinin qrupları məlum olub. AZƏRTAC Avropa Həndbol Federasiyasına istinadla xəbər verir ki, "C" qrupunda yer alan Azərbaycan yığmasının rəqibləri Fransa, İspaniya, Finlandiya və İslandiya olacaq. Qeyd edək ki, turnirdə iştirak edən 20 komanda dörd qrupda mübarizə aparacaq.

## ELAN

12 sentyabr 2001-ci ildə Biləsuvar rayon Aqrar İstehsalat Komissiyasının 10 saylı qərarı ilə Soltanov Əlyar Səfər oğlunun adına verilmiş JN-0024 saylı "Torpağa mülkiyyət hüququna dair" Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya və biologiya ixtisası üzrə III kurs tələbəsi Əhlimanzadə Qərənfil Vəkil qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin IV kurs tələbəsi Bayramova Aydan Nazim qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Formula-1 Azərbaycan Qran-Prisinə hazırlıq işlərinin 70 faizi yekunlaşıb



Aprelin 27-29-da Bakıda keçiriləcək Formula-1 Azərbaycan Qran-Prisinə hazırlıq işləri sürətlə davam etdirilir. Təhlükəsizlik baryerləri, beton bloklar və tribunalar artıq quraşdırılıb. AZƏRTAC xəbər verir ki, bu sözləri martın 5-də gənclər və idman naziri Azad Rəhimov Formula-1 Azərbaycan Qran-Prisinə hazırlıq işləri barədə jurnalistlərə müsahibəsində deyib.

Qran-Priyə hazırlıq işlərinin 70 faizinin artıq yekunlaşdığını vurğulayan Azad Rəhimov qeyd edib: "Tribunalar artıq qurulub. Hazırlıq prosesində hər hansı geçikmə və ya problem yoxdur. Ötən illə müqayisədə bu il əyləncə proqramında bir çox yeniliklər olacaq. Əvvəl dünyanın tanınmış müğənniləri Dənizkənarı Milli Park ərazisində çıxış edirdilər. Amma bu il Azərbaycan Qran-Prisi daha tez - aprelin 27-29-da keçiriləcəyindən hava şəraiti nəzərə alınaraq, əyləncə proqramı "Baku Crystal Hall"da təşkil ediləcək".

## "Neftçi" Qəbələdə əzmkar qələbə qazandı!



Futbul üzrə Topaz Premyer Liqada 18-ci tura yekun vurulub. Turun maraqlı qarşılaşması Qəbələdə keçirilib. Burada eyniadlı komanda "Neftçi"ni qəbul edib və hesabda öndə olmasına baxmayaraq, ikinci hissədə iki top buraxaraq uduzub. Bu, Roman Qriqorçukun komandasının Premyer Liqada ardıcıl ikinci məğlubiyyəti olub. Turun digər matçında "Keşlə" "Zirə"nin qonağı olub. Oyun qonaqların 2:1 hesablı qələbəsi ilə başa çatıb.

Qeyd edək ki, Premyer Liqanın lideri "Qarabağ"ın ən yaxşı izləyiciləri "Qəbələ" və "Zirə"nin xalsız qalması Ağdam təmsilçisini çempionluğa yaxınlaşdırıb.

## Şəhriyar Məmmədyarov beynəlxalq şahmat turnirində ikinci olub



Moskvada Mixail Talın xatirəsinə həsr olunmuş beynəlxalq şahmat turnirinin rapid yarışlarına yekun vurulub. Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov 5 xalla turniri ikinci pillədə başa vurub. Hesabında 6 xal olan hindistanlı zəka sahibi Vişvanatan Anand turnirin qalibi olub. Rusiyalı şahmatçı Sergey Karyakin (5 xal) yarışı üçüncü yerdə tamamlayıb.

## Messi 600-cü qolunu vurub!




İspaniya La Liqasının XXVI turu "Barselona"nın lideri Lionel Messi üçün əlamətdar olub. Apasport.az saytının məlumatına görə, "Atletiko" üzərində minimalhesablı qələbənin (1:0) memarı olan argentinalı forvard yubiley qolunu vurub. Yeganə topun müəllifi olan Leo bununla karyerası ərzində 600-cü rəsmi qoluna imza atıb. O, bunun 539-nu "Barselona"da, 61-ni isə Argentina millisində vurub. Messi 600-cü qoluna 747-ci matçında imza atıb.

## Yeniyetmə cüdoçularımız Avropa kuboku yarışlarında uğurla çıxış ediblər



Antalyada yeniyetmə cüdoçular arasında Avropa kuboku yarışları başa çatıb. Beynəlxalq turnirin sonuncu günündə - martın 4-də millimiz hesabına daha üç medal yazdırıb. AZƏRTAC xəbər verir ki, oğlanların mübarizəsində İbrahim Ağakişiyev (81 kq), Yaqub İsmayılzadə (90 kq) və Toğrul Salmanov (90 kq-dan yuxarı) yalnız final görüşündə uduzaraq gümüş medalla kifayətləniblər. Yarışın ilk günü millimizin üzvləri Vüsalə Kərimova (44 kq) qızıl, Səbinə Əliyeva (48 kq) isə bürünc medal qazanıblar. Beləliklə, Azərbaycan cüdoçuları Antalya turnirində 1 qızıl, 3 gümüş və 1 bürünc medala sahib olublar.


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500